RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 16 (8609) BAZAR, 24 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## İlham Əliyevin enerji strategiyasının növbəti möhtəşəm qələbəsi



2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə “Cənub qaz dəhlizi”nin tam istismara verildiyini, artıq Avropa istehlakçılarının Azərbaycanın təbii qazını aldıqlarını deyən Prezident İlham Əliyev həm də enerji sahəsində növbəti mühüm hadisənin müjdəsini vermişdi. “Vaxtından əvvəl nə isə demək istəmirəm. Amma eyni zamanda biz yaxın günlərdə enerji sahəsində yeni gözəl hadisələrin şahidi olacağıq. Vaxt gələndə bu barədə də məlumat veriləcək. Yeni layihə bizim potensialımızı böyük dərəcədə gücləndirəcək”, - deyə dövlət başçısı bildirmişdi.

### Azərbaycanla Türkmənistan əlaqələrində yeni mərhələnin başlanğıcı

Yanvarın 21-də Azərbaycanla Türkmənistan arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması Prezident İlham Əliyvin müjdəsini verdiyi həmin hadisə idi. Azərbaycan və Türkmənistan prezidentlərinin videokonfrans formatında keçirilən görüşü çərçivəsində imzalanan bu tarixi sənəd həm iki ölkənin əlaqələrində, həm onların həyata keçirdiyi enerji siyasətlərində, həm də Xəzər dənizinin karbohidrogen ehtiyatlarının hasilatında yeni mərhələnin başlanğıcıdır.

Xatırladaq ki, müstəqilliklərini bərpa etdikdən sonra Azərbaycanla Türkmənistan arasında diplomatik münasibətlər quruldu. Bunun əsası 1992-ci ildə qoyulub. Ortaq milli-mədəni dəyərləri bölüşən bu iki türk dövlətinin coğrafi baxımdan da bir-birinə yaxınlıqlarına, zəngin karbohidrogen ehtiyatlarına malik olmalarına rəğmən siyasi əlaqələri uzun müddət inkişaf etməmişdi. Lakin indi Azərbaycan-Türkmənistan münasibətləri strateji xarakter daşıyır. 2017-ci ildə iki dövlət arasında strateji tərəfdaşlıq haqqında bəyannamə də imzalanıb.

Ardı 3-cü səh.

◆ İlin uğurlu yekunları

## 44 günün zəfər təntənəsi

### İşğaldan azad edilən torpaqlarımızda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanında qürurla dalğalandırıldı

2020-ci il Azərbaycan xalqının ən qürurlu, ən parlaq zəfər ili kimi, bəşər var olduqca xatırlanacaq əbədi qələbə imzası atdığı möhtəşəm tarix oldu. Ötən ilin son baharı odlar diyarına nurla qədəm qoydu və illərlə həsrətində olduğumuz yurd nisgilini, Qarabağ həsrətini bir andaca bitirdi. Çox şanlı, qürurlu günlər yaşadıq, zəfərlər qeyd etdik. Həmin təntənəli günlərdən biri isə Azadlıq meydanında baş tutan 10 dekabr Zəfər paradı idi.

“2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək”.

2018-ci il iyunun 26-da Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paraddakı nitqini bu fikirlərlə yekunlaşdırmışdı...

Və üzərindən cəmi iki il yarım keçəndən sonra, 2020-ci ilin 10 dekabrında keçirilən Qələbə Paradında Azərbaycan xalqı Azadlıq meydanında o böyük anın şahidi oldu. Silahlı Qüvvələrimizin şəxsi heyəti Dövlət bayrağımız və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında gözlərimiz önündən fəxrlə ötüb keçdi. Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqları Azadlıq meydanında vüqarla dalğalandırıldı.

Ardı 4-cü səh.

## Ermənistan Azərbaycanın humanist siyasətindən nəticə çıxarmalıdır

### Azərbaycan, Rusiya və Ermənistanın dövlət başçılarının Moskvada keçirdiyi üçtərəfli görüşdə bu məsələ diqqət mərkəzində oldu

Azərbaycanın tarixi və əzəli torpaqlarının Ermənistanın təcavüzkar siyasəti ilə işğalının 28 ildən sonra başa çatması yalnız Cənubi Qafqazın deyil, əslində dünya düzənində təhlükəsizliyin təminatında mühüm məsələlərdən biri hesab edilir.

Baxmayaraq ki, 1994-cü ildə Ermənistan-Azərbaycan arasındakı münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupu yaradılmışdı, onlar müharibə sona çatanadək məsələnin həllində bir addım belə irəli gedə bilməmişdilər. Bunlar azmış kimi, üstəlik, daim münaqişə tərəflərini kompromisə dəvət edirdilər ki, bu da təcavüzə məruz qalanla işğalçını bir-birindən fərqləndirməmək qədər təhlükəli, ikili standart siyasəti demək idi.

Əraziləri işğala məruz qalan Azərbaycan dəfələrlə regiona səfər edən bu “üçlük” qarşısında məsələni ciddi şəkildə qaldırsa da, belə bir beynəlxalq qurum sanki dünya erməni lobbisinin təsiri altında olması təəssüratı yaradırdı.

Bu “fəaliyyət” BMT Təhlükəsizlik Şurasında da müşahidə edilirdi. Təşkilatın 1993-cü il aprel ayının əvvəllərində Kəlbəcərin işğalı ilə əlaqədar qəbul etdiyi 822 nömrəli qətnamənin təcavüzkar Ermənistan tərəfindən saya salınmaması münaqişənin daha da dərinləşməsinə, sonra Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarının da işğalına zəmin yaratdı. BMT TŞ bundan sonra Azərbaycanın yuxarıda adlarını çəkdiyimiz rayonlarının işğalında illərlə kağız üzərində qalan daha üç qətnamə qəbul etdi. Bu gün də təəssüf hissi ilə qeyd edilir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllində beynəlxalq təşkilatlar ya birbaşa təcavüzkarı dəstəklədilər, ya da dolayısı ilə loyal münasibət sərgilədilər. Avropada nüfuzu ilə seçilən bəzi dövlətlərin erməni lobbisinin təsirindən çıxa bilməmələri, münaqişənin ötən il sentyabrın 27-dən ikinci mərhələyə - müharibəyə keçməsi zamanı özünü daha qabarıq şəkildə göstərdi.

Ardı 4-cü səh.

## Ermənistan həlli çətin olan problemlərlə baş-başa qalıb

Ermənistanda iki aydan çoxdur davam edən siyasi böhran gündən-günə daha da kəskinləşir. Bu həm də sosial-iqtisadi müstəvidə vəziyyətin pisləşməsinə səbəb olub. Müharibədəki məğlubiyyət və pandemiya fonunda əhalinin maddi rifahının pisləşməsi, iqtisadiyyatın tənəzzülü Ermənistana sonu görünməyən ağır günlər vəd edir. Proseslərin gedişatı göstərir ki, bu dövlətin üzləşdiyi problemlərdən xilas ola bilməsi mümkünsüzdür.

Ardı 3-cü səh.




## 2020-ci il goranboylular üçün təkcə erməni terroru ilə yadda qalmayıb

### Ötən il rayonun sosial-iqtisadi inkişafı da davam edib

2020-ci il ölkəmizin həyatındakı hadisələrin əhəmiyyəti və zənginliyi baxımından uğurlu il kimi səciyyələndirilir. Sentyabrın 27-dən başlanan Vətən müharibəsi noyabrın 10-da Azərbaycan əsgərinin zəfəri ilə başa çatdı. Bu gün hər birimiz 44 günlük haqq savaşında əldə etdiyimiz bu qələbəyə görə Ali Baş Komandana və Ordumuza minnətdarıq.

Düşmənlə üz-üzə dayanmış goranboylular da bu savaşda ermənilərə layiq olduqları yeri göstərdilər. Rayonun Tapqaraqoyunlu kəndi ermənilər tərəfindən mərmi atəşinə tutulsa da, kənd sakinləri Azərbaycan Ordusunun gücünə inanaraq öz ata-baba yurdlarını tərk etmədilər. Əksinə, Suqovuşanın düşmən işğalından azad edilməsindən sonra rayon ərazisinin suvarma suyu ilə təminatında əvvəllər mövcud olan problemlərə son qoydular. Çünki goranboylular vətənpərvər olmaqla yanaşı, həm də olduqca işgüzardırlar.

Dövlət başçısının mart ayının 3-də Goranboya növbəti səfəri yaddaqalan oldu. Prezidentin iştirakı və xeyir-duası ilə 142 çarpayılıq 4 mərtəbəli müasir tibbi avadanlıqlarla təchiz olunmuş yeni mərkəzi xəstəxana binasının və ümumi uzunluğu 40 km olan Goran-Qızılhacılı-Goranboy-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun istifadəyə verilməsi, “Azərxalça” ASC-nin rayon filialı ilə tanışlıq keçən ilin mühim hadisələrindəndir.

Rayonun sosial-iqtisadi göstəricilərinə gəldikdə belə bir statistikaya nəzər salaq: son 17 ildə rayon üzrə ümumi məhsul buraxılışının həcmi 4,3, sənaye məhsulları istehsalı 3,1, kənd təsərrüfatı məhsulları istehsalı 2,2 dəfə, tikinti-quraşdırma işlərinin həcmi 51, əsas kapitala yönəldilən investisiyalar 54,8 faiz artmışdır.

Ardı 5-ci səh.





## Məhsuldarlıq sözünü deyir

2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə ötən il ərzində iqtisadi və sosial sahədə görülən işlər müzakirə olunmaqla yanaşı, müxtəlif sahələrin inkişaf perspektivləri ilə bağlı mühüm vəzifələr də müəyyən edilmişdir. Prezident İlham Əliyev müşavirədə qeyd etmişdir ki, pandemiya dövründə iqtisadi artımda müəyyən geriləmənin olması təbiidir. Bununla belə ölkəmizin qeyri-neft sənayesində 11, kənd təsərrüfatında 2 faiz artım qeydə alınıb. Aqrar sektor üzrə bu artım bitkiçilikdə 1, heyvandarlıqda isə 2,9 faiz olub.

İndi dünyada kənd təsərrüfatı strateji sahəyə çevrilib. Bunun birinci səbəbi əhalinin sayının sürətlə çoxalması nəticəsində ərzağa tələbatın artmasıdır. İkinci səbəb isə iqlim dəyişikliyi səbəbindən təbii yolla məhsul istehsalının artımında olan geriləmələrdir. İndi əkin sahələrinin suvarılmaya daha çox ehtiyacı var. Əvvəllər yağan yağış və qar bir çox hallarda suvarmaya olan ehtiyacı minimuma endirirdi. Bu gün ölkəmizin bir sıra ərazilərində səpin həyata keçiriləndən sonra günlərlə yağış yağmır ki, bu da bitkilərin inkişafına mənfi təsir göstərir, məhsuldarlığı aşağı salır.



Kənd təsərrüfatının inkişafı ölkənin ərzaq təhlükəsizliyinin başlıca qarantı olduğu üçün dövlətimiz bu sahənin inkişafına daim dəstək verir. Aqrar sektorun inkişafı eyni zamanda ölkənin gəlirlərinin artırılmasına müsbət təsir göstərən faktora çevrilib. Səbəb qeyd etdiyimiz kimi, dünyada əhalinin sürətlə çoxalmasından kənd təsərrüfatı məhsullarına tələbatın artmasıdır. Tələbat artanda isə məhsulun qiymətinin yüksəlməsi qaçılmaz olur. Odur ki, artıq aqrar sektor dünyada əvvəlkindən fərqli olaraq yaxşı gəlir gətirən sahəyə çevrilib.

Ardı 5-ci səh.

## Sistemli tədbirlər bəhrəsini verir

Bəşəriyyət qlobal pandemiyaya qarşı güclü savaşa qalxsa da, hələ ki, qalib çıxa bilmir. Koronavirus infeksiyasına yoluxma halları sürətlə geniş miqyasda artmaqdadır. İnfeksiyadan qorunmağın ən effektiv yolu olan vaksinasiya işinin başlanmasına rəğmən təhlükəli virus yayılmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada COVID-19-a yoluxma hallarının ümumi sayı 96 milyonu, ölüm hallarının sayı 2 milyonu ötüb.

### İki həftədə bütün tibb işçiləri vaksinasiyadan keçəcək

Vaksinasiya prosesi artıq bir çox ölkələrdə başlanıb. Azərbaycan da dünyanın ən öndə gedən dövlətləri ilə bərabər bu prosesə start verib. Ölkədə COVID-19-a qarşı vaksinasiya prosesi yanvarın 18-də səhiyyə işçilərinin peyvəndlənməsi ilə start götürüb.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı Türkiyənin “Anadolu” agentliyinə müsahibəsində deyib ki, yaxın iki həftə ərzində bütün tibb işçiləri koronavirusa qarşı vaksinasiyadan keçəcək. Ondan sonra yaşı 65-dən çox olan şəxslər peyvənd olunacaqlar: “Daha sonra risk qrupuna daxil olanlar başda olmaqla digər şəxslər vaksinasiyadan keçəcək. Sonrakı mərhələdə 50 yaşdan yuxarı şəxslərin peyvəndlənməsi hədəflənir. Bununla da xəstəxanada yatanların sayını azaltmaq mümkün olacaq.

Ardı 6-cı səh.

# Xalq artisti Eldar Quliyevə

Hörmətli Eldar müəllim!

Sizi - Azərbaycanın görkəmli kino xadimini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür və möhkəm cansağlığı diləyirəm.

Sizin zəngin yaradıcılığınız milli kino sənətinin parlaq səhifələrindəndir. Dünya kinematoqrafiyasının mühüm nailiyyətlərindən məharətlə bəhrələnərək yaratdığınız çoxsaylı filmlər Azərbaycan kino salnaməsində xüsusi yer tutur.

Siz Azərbaycan mədəniyyəti və tarixinin yetirdiyi görkəmli şəxsiyyətlərə unudulmaz ekran həyatı bəxş etmisiniz. Ölkəmizin hüdudlarından kənarda da Azərbaycan mədəniyyətini müvəffəqiyyətlə təmsil etməyiniz təqdirəlayiqdir. Milli kinematoqrafiyanın inkişafı sahəsində uzunmüddətli səmərəli xidmətlərinizə görə Siz yüksək dövlət mükafatları ilə təltif edilmisiniz. Novator ruhlu böyük yaradıcı şəxsiyyət kimi Sizin daim axtarışlarla dolu sənət yolunuz gənc kinematoqrafçılar nəsli üçün bundan sonra da bir məktəb olacaqdır.

*Ən xoş arzularla,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2021-ci il*

# E.T.Quliyevin “İstiqlal” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Eldar Tofiq oğlu Quliyev “İstiqlal” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2021-ci il*

# İ.M.Hacıyevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda elmin inkişafında xidmətlərinə görə İsmayıl Muxtar oğlu Hacıyev “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2021-ci il*

# Ukraynanın Prezidenti zati-aliləri cənab Volodimir Zelenskiyə

Hörmətli cənab Prezident.

Xarkov şəhərindəki ahıllar evində baş vermiş yanğın nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Ukrayna xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Müşahidə Şurasının üzvləri**

Emin Hüseynov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

İsrafil Məmmədov - Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru

Elnur Soltanov - Azərbaycan Respublikası energetika nazirinin müavini

Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Rövşən Nəcəf - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Ruslan Əlixanov - Azərbaycan İnvestisiya Holdinqinin Baş İcraçı direktoru.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında” 2011-ci il 21 dekabr tarixli 548 nömrəli və “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1124; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2019, № 5, maddə 817; 2020, № 5, maddə 545) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə olunması və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirir.”;

1.2. 5-ci və 6-cı hissələr ləğv edilsin.

2. “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1173; 2019, № 9, maddə 1490) 1.4-cü bəndində “təşkili və tənzimlənməsi “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinə” sözləri “təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinə” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 yanvar 2021-ci il*

# Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların davam etdirilməsi, ölkədəki mövcud sənaye parkları, sənaye məhəllələri və aqroparklar sahəsində idarəetməni, habelə nəzarət mexanizmlərini daha da təkmilləşdirmək, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq, daha sıx koordinasiyanı və sistemliliyi təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki “Sumqayıt Kimya Sənaye Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətinin əsasında Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra - Agentlik) sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla) və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlayan, həyata keçirilməsini təmin edən, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərində iştirak edən publik hüquqi şəxsdir;

2.2. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün 7 (yeddi) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.3. Agentliyin fəaliyyətinə cari rəhbərliyi 5 (beş) üzvdən ibarət İdarə Heyəti həyata keçirir;

2.4. Müşahidə Şurasının 4 (dörd) üzvünü Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 3 (üç) üzvünü isə aşağıdakı dövlət qurumları (hər qurumdan bir nəfər olmaqla) təyin edirlər:

2.4.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;

2.4.2. “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti;

2.4.3. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti.

2.5. Müşahidə Şurasının sədri və İdarə Heyətinin üzvləri Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

3. Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlara dəyişiklik edilməsi;

3.1.2. Agentliyin ləğvi və yenidən təşkili.

3.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. iki ay müddətində:

4.1.1. Agentliyin nizamnaməsinin layihəsini, habelə nizamnamə fondunun miqdarı barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.1.2. “Aqroparklar haqqında Nümunəvi Əsasnamə”nin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Agentlik dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində:

4.2.1. Agentliyin maddi-texniki təminatı məsələlərinin həlli üçün tədbirlər görsün;

4.2.2. “Sumqayıt Kimya Sənaye Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətinin balansındakı əmlakın Agentliyin balansına verilməsini təmin etsin;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Aidiyyəti dövlət qurumları bu Fərmanın 2.4-cü bəndinə uyğun olaraq Agentliyin Müşahidə Şurası üzvlərinin təyin olunmasını bir ay müddətində təmin etsinlər.

6. Agentlik “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək:

6.1. “Sumqayıt Kimya Sənaye Parkı” Məhdud Məsuliyyətli Cəmiyyəti öz fəaliyyətini davam etdirsin;

6.2. sənaye parklarının və sənaye məhəllələrinin fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı məsələlərin tənzimlənməsi bu Fərman qüvvəyə mindiyi günədək mövcud normativ hüquqi aktların tələblərinə uyğun olaraq həyata keçirilsin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

7.1. Agentliyin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

7.2. bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulmuş sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların fəaliyyətinin qiymətləndirilməsini altı ay müddətində həyata keçirsin və onların fəaliyyətinin səmərəliliyinin artırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında” 2006-cı il 30 mart tarixli 1395 nömrəli, “Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında” 2015-ci il 2 fevral tarixli 1011 nömrəli, “Mingəçevir Sənaye Parkının yaradılması haqqında” 2015-ci il 26 fevral tarixli 1077 nömrəli, “Qaradağ Sənaye Parkının yaradılması haqqında” 2015-ci il 3 iyun tarixli 1255 nömrəli, “Masallı Sənaye Məhəlləsinin yaradılması haqqında” 2016-cı il 13 iyun tarixli 2115 nömrəli, “Pirallahı Sənaye Parkının yaradılması haqqında” 2016-cı il 14 sentyabr tarixli 2336 nömrəli, “Hacıqabul Sənaye Məhəlləsinin yaradılması haqqında” 2017-ci il 25 iyul tarixli 3127 nömrəli və “Sabirabad Sənaye Məhəlləsinin yaradılması haqqında” 2017-ci il 27 noyabr tarixli 3407 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli 1395 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 283, № 6, maddə 511; 2007, № 5, maddə 517; 2009, № 2, maddə 74; 2010, № 2, maddə 80; 2014, № 5, maddə 477, № 12, maddə 1638; 2016, № 8, maddə 1384; 2020, № 8, maddə 923) 2.3.5-ci yarımbəndi ləğv edilsin.

2. “Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 fevral tarixli 1011 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 144; 2016, № 8, maddə 1384; 2019, № 5, maddə 911) 3-cü hissəsində “təşkilini və tənzimlənməsini “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyəti” sözləri “təşkili, onun idarə olunması və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi” sözləri ilə əvəz edilsin.

3. “Mingəçevir Sənaye Parkının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 fevral tarixli 1077 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 208; 2016, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

“3. Mingəçevir Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə olunması və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra - Agentlik) həyata keçirir.”;

3.2. 4.2-ci bənddə “Cəmiyyətə” sözü “Agentliyə” sözü ilə əvəz edilsin.

4. “Qaradağ Sənaye Parkının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 iyun tarixli 1255 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 717; 2016, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

“3. Qaradağ Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə olunması və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra - Agentlik) həyata keçirir.”;

4.2. 5.2-ci bənddə “Cəmiyyətə” sözü “Agentliyə” sözü ilə əvəz edilsin.

5. “Masallı Sənaye Məhəlləsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyun tarixli 2115 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1118; 2019, № 5, maddə 911) 2.2-ci bəndində “idarə olunmasını, inkişafını, fəaliyyətinin təşkilini və tənzimlənməsini “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyəti” sözləri “fəaliyyətinin təşkili, onun idarə olunması və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi” sözləri ilə əvəz edilsin.

6. “Pirallahı Sənaye Parkının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 sentyabr tarixli 2336 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1531) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

“3. Pirallahı Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə olunması və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra - Agentlik) həyata keçirir.”;

6.2. 5.2-ci bənddə “Cəmiyyətə” sözü “Agentliyə” sözü ilə əvəz edilsin.

7. “Hacıqabul Sənaye Məhəlləsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 iyul tarixli 3127 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1462; 2019, № 5, maddə 911) 2.2-ci bəndində “təşkili və tənzimlənməsi “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinə” sözləri “təşkili, onun idarə olunması və inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinə” sözləri ilə əvəz edilsin.

8. “Sabirabad Sənaye Məhəlləsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli 3407 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2116; 2019, № 5, maddə 911) 2.2-ci bəndində “təşkili və tənzimlənməsi “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinə” sözləri “təşkili, onun idarə olunması və inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinə” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti yarandığı dövrdən böyük inkişaf yolu keçərək ölkənin sosial-iqtisadi tərəqqisində mühüm rol oynamışdır.

Ümummilli Lider Heydər Əliyevin qətiyyətli siyasəti nəticəsində 1994-cü ildən başlayaraq həyata keçirilən uğurlu neft strategiyası Azərbaycan Respublikasının beynəlxalq iqtisadiyyata inteqrasiyasında və ölkəyə xarici investisiyaların cəlb edilməsində müstəsna rol oynamaqla yanaşı, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin fəaliyyətində mühüm dəyişikliklərlə müşayiət olunmuşdur. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən karbohidrogen yataqlarının işlənilməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə bağlanılmış “Əsrin müqaviləsi” respublikanın neft-qaz sənayesinin inkişafında yeni mərhələ olmuşdur. Hazırda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti neft-qaz hasilatı, nəqli və emalı ilə məşğul olan müəssisədən transmilli şirkətə çevrilərək iştirakçısı olduğu beynəlxalq layihələrdə Azərbaycan Respublikasını uğurla təmsil edir, ölkənin iqtisadi potensialının güclənməsinə, sosial-iqtisadi tərəqqisinə, eləcə də milli maraqlarımızın həyata keçirilməsinə mühüm töhfə verir.

Qlobal iqtisadiyyatda, o cümlədən xarici neft bazarında baş verən prosesləri və qeyri-müəyyənlikləri nəzərə alaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin korporativ idarəetmə sisteminin və biznes modelinin təkmilləşdirilməsi yolu ilə onun beynəlxalq mühitdə rəqabətədavamlılığı, orta və uzunmüddətli perspektivdə maliyyə dayanıqlığı, idarəetmənin, habelə sərmayələrin effektivliyinin və aktivlərinin dəyərinin əhəmiyyətli dərəcədə artırılması əsas çağırışa çevrilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qabaqcıl təcrübə və müasir idarəetmə tələbləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin fəaliyyətində səmərəliliyi artırmaq, onun idarə edilməsini müasir korporativ idarəetmə standartları nəzərə alınmaqla təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (bundan sonra - SOCAR) fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün SOCAR-ın Müşahidə Şurası (bundan sonra - Müşahidə Şurası) yaradılsın.

2. Müəyyən edilsin ki, Müşahidə Şurası Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr də daxil olmaqla 7 (yeddi) üzvdən ibarətdir.

3. SOCAR-ın ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. SOCAR-ın yenidən təşkili və ləğvi;

3.1.2. SOCAR-ın Müşahidə Şurasının və icra orqanının üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan İnvestisiya Holdinqinə:

3.2.1. SOCAR-ın nizamnaməsinin və strukturunun təsdiq edilməsi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

3.2.2. SOCAR-ın illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

3.2.3. SOCAR-ın dividend siyasətinin təsdiq edilməsi;

3.2.4. SOCAR-ın qiymətli kağızlarının buraxılması barədə qərar qəbul edilməsi;

3.2.5. SOCAR-ın xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri SOCAR-ın aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi.

4. Müəyyən edilsin ki, SOCAR-ın Müşahidə Şurasının səlahiyyətləri aşağıdakılardır:

4.1. SOCAR-ın uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;

4.2. SOCAR-ın xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək;

4.3. SOCAR-ın xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri SOCAR-ın aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması ilə bağlı ümumi yığıncağa təkliflər vermək;

4.4. aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri SOCAR-ın aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdləri təsdiq etmək;

4.5. mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla SOCAR-ın aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılıq vermək;

4.6. fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları, habelə filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək;

4.7. SOCAR-ın korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək;

4.8. SOCAR-ın Audit Komitəsini və digər komitələrini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.9. bu Fərmanın 3-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, SOCAR-ın nizamnaməsi və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

5. Azərbaycan İnvestisiya Holdinqi:

5.1. SOCAR-ın idarə olunmasına dair korporativ idarəetmə standartlarını, habelə SOCAR-ın idarəetmə orqanlarının üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi sistemini altı ay müddətində təsdiq etsin;

5.2. beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, SOCAR-ın mövcud müqavilə öhdəliklərinə riayət olunması şərtilə onun hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin nəticələrinin diaqnostikasının aparılmasını altı ay müddətində təmin edib nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. bu Fərmanın 5.2-ci bəndində nəzərdə tutulan diaqnostika başa çatdıqdan sonra onun nəticəsindən asılı olaraq SOCAR-ın yeni nizamnaməsinin və strukturunun layihəsini iki ay müddətində hazırlayıb razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. SOCAR-ın Müşahidə Şurasının yaradılması ilə əlaqədar onun nizamnaməsinin 4-cü və 5-ci hissələrinin bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini 15 (on beş) gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2021-ci il*

# Prezident İlham ƏLİYEV:
## "Biz gərək ərzaq təhlükəsizliyinə düşünülmüş şəkildə yanaşaq"

Ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli addımlar atılır və bu məsələ ilə bağlı göstəriş verilib. Ərzaq təhlükəsizliyi o demək deyil ki, biz bütün ərzaq məhsullarını, yaxud da kənd təsərrüfatı məhsullarını Azərbaycanda tam həcmdə istehsal etməliyik. Biz gərək ərzaq təhlükəsizliyinə, necə deyərlər, düşünülmüş şəkildə yanaşaq. Bu ərzaq təhlükəsizliyinin böyük hissəsi, təbii ki, Azərbaycanda formalaşmalıdır və əgər indi buğda istehsalını istisna etsək, bütün digər əsas ərzaq-qida məhsulları ilə özümüzü böyük dərəcədə təmin edirik. Ancaq, eyni zamanda, bu, bizim ixrac imkanlarımıza da maneçilik törətməməlidir. İxrac bazarlarına çıxarıla biləcək məhsullara da diqqət yetirilməlidir.




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 104-cü kitabında yer alan bu fikirlər dövlət başçısının Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş videoformatda iclası zamanı söylədiyi nitqindən götürülüb.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin növbəti kitabındakı materiallar 2020-ci ilin iyun-iyul aylarını əhatə edir.

Yeni kitabda Prezident İlham Əliyevin Dövlət Təhlükəsizlik Şurasının iclasında Ermənistan-Azərbaycan sərhədindəki mövcud vəziyyət haqqında çıxışının mətni, Ermənistanın təxribatları ilə bağlı həqiqətlərin dünyaya çatdırılması üçün müxtəlif ölkələrin başçılarına, habelə İslam Əməkdaşlıq Təşkilatının, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının rəhbərlərinə ünvanlandığı məktublar yer alıb.

Nəşrdə Prezident İlham Əliyevin BMT-nin Ümumdünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili, Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə videokonfrans formatında, BMT-nin Baş katibi Antonio Quterreş, Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayev ilə telefonla görüşlərinə dair materiallar toplanıb.

Oxucular Prezident İlham Əliyevin Gəncə şəhərinə və Samux rayonuna, Mingəçevirə səfərləri, istehsalat müəssisələrinin, xəstəxanaların və digər infrastruktur obyektlərinin açılışında iştirakı, ictimaiyyət nümayəndələri ilə görüşləri barədə materiallarla da tanış ola bilərlər.

Kitaba Azərbaycan Prezidentinin Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulmuş modul tipli hospitalının açılışında iştirakı haqqında informasiya, Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Xəzər" Televiziyasına müsahibəsinin, habelə Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində çıxışının, ölkədə su təsərrüfatının vəziyyətinə həsr olunmuş videomüşavirədə nitqinin mətnləri də daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan çoxcildliyin 104-cü kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# "Yüksəliş" müsabiqəsi Prezidentin köməkçisi Hikmət Hacıyevin təqdimatında vebinar təşkil edib

Yanvarın 22-də "Yüksəliş" müsabiqəsinin İşçi Qrupu tərəfindən növbəti vebinar keçirilib.



AZƏRTAC xəbər verir ki, 300-dən çox iştirakçının qatıldığı vebinarda Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Müasir dövlət qulluqçusu, menecment və ictimaiyyətlə əlaqələr" mövzusunda təqdimatla çıxış edib. Vebinarın moderatoru Yüksəliş İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev olub.

Hikmət Hacıyev bildirib ki, Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə yaradılan "Yüksəliş" layihəsi, eləcə də bu layihənin ərsəyə gəlməsi təşəbbüsü ali məqsədlərə xidmət edir. Hər bir dövlət üçün insan resursları ehtiyatının əhəmiyyətli olduğunu söyləyən Hikmət Hacıyev bu müsabiqəni dövlət qulluğu və digər sahələrə uyğun potensial kadrların formalaşdırılması, onların inkişaf etdirilməsi baxımından vacib təşəbbüs kimi qiymətləndirib.

Prezidentin köməkçisi 2020-ci ilin Azərbaycan xalqının həyatında və tarixində müstəsna dövr olduğunu vurğulayıb. H.Hacıyev qeyd edib ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı ilə xalqımız Vətən savaşında tarixi zəfərini əldə etdi.

Hikmət Hacıyev kommunikasiya strategiyasının dövlət orqanları qarşısında ən vacib fəaliyyət istiqamətlərindən biri olduğunu deyib. O, həmçinin bildirib ki, vətəndaşlarla canlı ünsiyyət, vətəndaş məmnunluğunun təmin edilməsi, ictimaiyyətə məlumatların düzgün və operativ ötürülməsi dövlət qurumlarının qarşısında duran əsas vəzifələrdəndir. Prezidentin köməkçisi vurğulayıb ki, məmurlar, səlahiyyət həvalə olunmuş şəxslər dürüst, xalqına, dövlətinə sadiq, təvazökar və peşəkar xüsusiyyətlərə malik olmalıdır. Onlar əmək fəaliyyətində zəhmətkeşlik, səmərəli çalışmaq və qarşıya qoyulan hədəflərin düzgün seçilməsi keyfiyyətlərini özündə daşımalıdır.

Qeyd edək ki, vebinar hazırda müsabiqədə iştirakını davam etdirən iştirakçılar üçün nəzərdə tutulub və qapalı şəraitdə keçirilib. İştirakçılarla qarşılıqlı müzakirə formatında aparılan vebinarda, həmçinin onların sualları cavablandırılıb.

"Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Milli Məclisin Əmək və sosial siyasət komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

Yanvarın 23-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin yaz sessiyasında onlayn formatda ilk iclası keçirilib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclası açan komitənin sədri Musa Quliyev bildirib ki, gündəliyə 3 məsələ daxildir. Sonra komitə sədri 2020-ci ilin payız sessiyası ərzində Əmək və sosial siyasət komitəsində görülən işlər barədə hesabatı və komitənin 2021-ci ilin yaz sessiyası dövrünə dair işlər planı haqqında məlumat verib.

Bildirib ki, 2020-ci ilin payız sessiyası dövründə komitənin iclaslarında 18 qanun layihəsi müzakirə edilərək Milli Məclisə tövsiyə edilib. Bu dövr ərzində komitədə 3 dinləmə keçirilib. Bunlar "Koronavirus pandemiyası dövründə sosial müdafiə tədbirləri", "Müharibə veteranlarının, qazilərin, şəhid ailələrinin sosial müdafiəsi və sosial psixoloji adaptasiyasına dair təklif və mülahizələr" mövzusunda və sessiyanın sonunda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin də iştirakı ilə keçirilmiş dinləmələrdir.

Komitə sədri diqqətə çatdırıb ki, 2020-ci ilin payız sessiyası dövründə komitəyə 129 sənəd, o cümlədən vətəndaşlardan 114 ərizə və şikayət, nazirliklərdən və idarələrdən 22 cavab məktubu daxil olub. Komitənin ünvanına daxil olan ərizə və şikayətlərin yarıdan çoxu əsasən sosial müdafiə məsələləri, 19-u işsizlik, 6-sı qaçqınlar və məcburi köçkünlərlə bağlı məsələlər, 5 ərizə də vətəndaşların mənzil problemləri ilə bağlı olub.

Ötən müddət ərzində komitədə 2 səyyar qəbul keçirilib, 35 vətəndaş qəbul edilib və onların qaldırdıqları problemlər və məsələlər dinlənilib, tövsiyələr və məsləhətlər verilib.

Əmək və sosial siyasət komitəsinin 2021-ci ilin yaz sessiyası dövrünə dair işlər planı haqqında danışan Musa Quliyev bildirib ki, yaz sessiyasında "Turizm haqqında" qanun layihəsinin müzakirəsi nəzərdə tutulur və "Xeyriyyəçilik fəaliyyəti haqqında" qanun layihəsinin hazırlanması üzərində iş davam etdiriləcək.

Komitə sədri bildirib ki, Milli Məclisin sədri Sahibə Qafarovanın tövsiyəsinə əsasən komitələrdə dinləmələr daha geniş şəkildə keçirilir. Həmin dinləmələrdə məqsəd problemlərin təhlil edilməsi və həllidir. Yaz sessiyasında da komitədə 3 dinləmənin keçirilməsi nəzərdə tutulur. Bunlar Şəhid ailələrinin və əlilliyi olan şəxslərin sosial müdafiəsi, Əhalinin məşğulluğunun təmin edilməsi və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunun icrası ilə bağlı olacaq.

Gündəlikdəki üçüncü məsələ - "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verən komitə sədri Musa Quliyev bildirib ki, sosial müdafiəyə ehtiyacı olan bir qrup insan üçün "Məşğulluq haqqında" qanunda 5 faizlik kvota müəyyənləşdirilib. Yəni onlar birinci növbədə işlə təmin edilməlidirlər. Bu dəyişikliklə həmin kateqoriyaya şəhid ailələrinin üzvləri də daxil edilir. Qanunun 4 maddəsinə ediləcək dəyişikliklər şəhid ailələrinin həm işə götürülməsi, həm peşə hazırlığı, həm özünüməşğulluq tədbirlərinə, həm də haqqı ödənilən ictimai və sosial işlərə cəlb olunmasında onlara üstünlük yaradan məsələdir. Bu dəyişikliklər dövlətimizin şəhid ailələrinə diqqətinin daha bir nümunəsidir.

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı çıxış edən komitə üzvləri Məlahət İbrahimqızı, Aqil Məmmədov, Vüqar Bayramov, Arzu Nağıyev, Səttar Möhbalıyev, Jalə Əliyeva, Sevinc Hüseynova, Əziz Ələkbərli, Soltan Məmmədov və Rauf Əliyev çıxış edərək payız sessiyasının hesabatı, yaz sessiyasının işlər planı və "Məşğulluq haqqında" qanuna təklif olunan dəyişikliklər barədə fikirlərini bildiriblər, təkliflərini veriblər.

Müzakirələrdən sonra 2020-ci ilin payız sessiyası ərzində Əmək və sosial siyasət komitəsində görülən işlər barədə hesabat və komitənin 2021-ci ilin yaz sessiyası dövrünə dair işlər planı qənaətbəxş hesab edilib.

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi isə birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

# Milli Məclisin deputatları AŞ PA-nın qış sessiyasında iştirak etmək üçün Strasburqda səfərdə olacaqlar

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasındakı daimi nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və bir qrup deputat AŞ PA-nın qış sessiyasında iştirak etmək üçün yanvarın 24-dən 29-dək Strasburqda səfərdə olacaqlar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinə deputatlardan Sevinc Fətəliyeva, Rafael Hüseynov, Sabir Hacıyev, Erkin Qədirli, Tural Gəncəliyev, Nigar Arpadarai və Kamal Cəfərov daxildirlər.

Sessiya dövründə Assambleya Bürosunun və Daimi Komitənin görülən işlər barədə hesabatı dinləniləcək, assambleyanın monitorinq prosedurunun təkmilləşdirilməsi, Gürcüstanda keçirilmiş parlament seçkilərinin müşahidəsinin nəticələri, Monteneqro ilə postmonitorinq dialoqu, COVID-19 vaksininin etik, leqal və praktiki tərəfləri, xroniki və uzunmüddətli xəstəliklərlə məşğul olan şəxslərə qarşı ayrı-seçkilik və digər mövzularda fikir mübadiləsi aparılacaq.

Tədbirlərdə Milli Məclisin deputatları gündəlikdəki məsələlərlə bağlı çıxışlar edəcək, fikirlərini bildirəcəklər.

# İlham Əliyevin enerji strategiyasının növbəti möhtəşəm qələbəsi

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb. Bu səfərlər, prezidentlərin razılaşmaları və imzalanan sənədlər əlaqələrin inkişafına böyük təkan verib.

Hazırda Azərbaycanla Türkmənistan arasında siyasi, iqtisadi, humanitar və digər sahələri əhatə edən sıx əməkdaşlıq telləri mövcuddur. Son olaraq ötən ilin martında Prezident Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri iki dövlət arasında müxtəlif sahələri əhatə edən çox geniş gündəliyə dair fəal dialoqun davamının təsdiqi idi. Həmin səfər göstərmişdi ki, münasibətlər yeni mərhələdə dinamik inkişaf edir. Xüsusən iqtisadi-ticari əməkdaşlıq genişlənir, əmtəə dövriyyəsi artır.

İkitərəfli əlaqələrin genişləndirilməsi çərçivəsində prezidentlərin xüsusilə diqqət yetirdiyi məsələlərdən biri nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi olub. Müasir nəqliyyat infrastrukturu yaradan hər iki dövlət bu sahədə yaxından əməkdaşlıq edərək tranzit və logistika imkanlarını daha da artırıblar. Hazırda bu sahədəki razılaşmalar hər iki ölkəyə mənfəət gətirməkdədir. Bu, həm də regionda təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir.

## "Dostluq" iki dövlətin dostluğunu daha da möhkəmləndirdi

Enerji sahəsində əməkdaşlıq da iki dövlət arasındakı fəal dialoqun əsas müzakirə mövzusudur. İlk növbədə həm Azərbaycanın, həm də Türkmənistanın zəngin karbohidrogen ehtiyatlara malik olması bu istiqamətdə əlaqələrin dərinləşdirilməsini zəruri edir. Qeyd edək ki, Türkmənistan Prezidentinin ötən ilin martında Azərbaycana səfəri zamanı Xəzər dənizində energetika sahəsində ikitərəfli əməkdaşlıq imkanları da ətraflı müzakirə və təhlil edilmiş, iri karbohidrogen resursları yataqlarından birində birgə iş barədə razılaşma əldə olunmuşdu.

Xatırladaq ki, "Dostluq" yatağı Azərbaycanda "Kəpəz", Türkmənistanda isə "Sərdar" adlandırılırdı. Bu yataq sovet illərində Azərbaycan neftçiləri tərəfindən kəşf olunub. Ancaq hər iki dövlətin dəniz sərhədinin tam ortasında yerləşdiyinə görə uzun illər istismar edilməyib. İndi isə Azərbaycan və Türkmənistan bu yatağın birlikdə istismarı barədə razılığa gəliblər. Yatağın "Dostluq" adlandırılması da məhz bundan irəli gəlir.

Beləliklə, iki dövlətin dəniz sərhədində yerləşən bu yataq Azərbaycanı və Türkmənistanı bir-birinə daha da yaxınlaşdırdı, daha da dostlaşdırdı. Prezident İlham Əliyev Anlaşma Memorandumunu tarixi sənəd adlandıraraq deyib: "...Mən bugünkü sənədi tarixi sənəd adlandırardım, çünki Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək".

## Yatağın istismarı hər iki dövlətə böyük dividendlər gətirəcək

Əvvəldə qeyd olunduğu kimi, Anlaşma Memorandumu Azərbaycan-Türkmənistan münasibətlərində və Xəzərin karbohidrogen ehtiyatlarının hasilatında yeni mərhələnin başlanğıcıdır. Bununla həm də iki dövlətin əlaqələrinin daha da möhkəmlənməsinə yol açan yeni əməkdaşlıq əlaqəsinin təməli qoyulur. İlk dəfə olaraq enerji yatağının iki dövlət tərəfindən birlikdə istismarı Xəzər dənizində yeni əməkdaşlıq formatının yaradılması deməkdir.

Bu yatağı "Dostluq" adlandırmaq barədə ümumi qərarın dərin rəmzi məna daşıdığını deyən Prezident Qurbanqulu Berdiməhəmmədovun sözlərinə görə, Anlaşma Memorandumu strateji istiqamətdə - enerji sahəsində Türkmənistan-Azərbaycan tərəfdaşlığında prinsipcə yeni mərhələ açır. "Hörmətli İlham Heydər oğlu, biz birlikdə böyük, mühüm və çox perspektivli bir layihəyə başlayırıq. Əminəm ki, "Dostluq" yatağında Türkmənistanın və Azərbaycanın birgə işi uğurlu və səmərəli olacaq. Bu tarixi sənədi dəstəklədiyinizə, xalqlarımız və dövlətlərimiz arasında dostluğun, qardaşlığın və əməkdaşlığın inkişafı və möhkəmlənməsi işinə böyük diqqətinizə və şəxsi töhfənizə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. Sizi bugünkü əlamətdar hadisə münasibətilə təbrik edirəm" deyə Türkmənistan Prezidenti bildirib.

Qurbanqulu Berdiməhəmmədov onu da qeyd edib ki, Xəzərdə birgə uğurlu fəaliyyətin əsas rəhni əsrlərboyu türkmən və Azərbaycan xalqlarında mövcud olan möhkəm qardaşlıq telləridir.

Enerji sahəsində irəliyə doğru atılan hər bir addım həm də siyasi və diplomatik uğur hesab olunur. Bu mənada Türkmənistanla "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması İlham Əliyevin enerji strategiyasının növbəti möhtəşəm qələbəsi, respublikamızın siyasi-diplomatik nailiyyətidir.

Bu sənədin imzalanması Xəzərin sülh, mehriban qonşuluq və dostluq dənizi kimi statusunun daha da möhkəmlənməsinə, dənizdə əməkdaşlıq və qarşılıqlı etimad mühitinin gücləndirilməsinə töhfə verəcək. Yatağın istismarı isə tezliklə Azərbaycan və Türkmənistan iqtisadiyyatlarına böyük dividendlər gətirəcək, hər iki dövlətin qlobal enerji təhlükəsizliyindəki iştirakını daha da gücləndirəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ermənistan həlli çətin olan problemlərlə baş-başa qalıb

*Əvvəli 1-ci səh.*

10 noyabr kapitulyasiyasından sonra müxalifət partiyaları baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün birləşsə də, hələ ki heç bir nəticəyə nail ola bilməyiblər. Erməni politoloqlarının fikrincə, bu ondan xəbər verir ki, hələlik Ermənistanda baş naziri istefaya məcbur edə biləcək qüvvə mövcud deyil.

Paşinyan hakimiyyətdən getmək fikrində olmasa da, etiraz aksiyalarından sonra 2021-ci ildə növbədənkənar parlament seçkilərinin keçirilməsini müxalifətə təklif edib. Müxalifət isə seçkilərin ancaq Paşinyanın istefasından sonra mümkün ola biləcəyini deyir. Yerevandakı Qafqaz İnstitutunun rəhbəri, politoloq Aleksandr İsgəndəryan mətbuata açıqlamasında deyir ki, növbədənkənar seçkilər məsələsində müxalifət daxilində kəskin fikir ayrılıqları mövcuddur və bu da təəccüblü deyil. Çünki ölkədə siyasi böhran müxalifət partiyaları arasındakı münasibətlərə də təsir edir...

A.İsgəndəryan bildirib ki, müxalif siyasi partiyaları birləşdirən yalnız Paşinyanın hakimiyyətinin davam etməsidir: "Onlar vahid proqram ətrafında yox, Paşinyana qarşı birləşiblər. Ona görə də müxalifət koalisiyasının daxilində Ermənistan üçün tipik olan rəqabət meydana çıxır. Serj Sarkisyan Nikol Paşinyana parlaq Konstitusiya və "Seçkilər haqda qanun" qoyub gedib, bu konstitusiya və qanun hakim qüvvənin maraqlarına xidmət edir. Əgər hansısa qüvvə hansısa formada hakimiyyətə gəlirsə və parlamentdə çoxluğa malik olarsa, o zaman hüquqi yollarla onu hakimiyyətdən kənarlaşdırmaq mümkün deyil".

A.İsgəndəryanın fikrincə, müxalifət başa düşür ki, növbədənkənar seçkilərdə qalib gəlməsi sual altındadır. Hətta seçkiləri udsalar belə, müxalifət partiyaları birləşə bilməyəcəklər. Ona görə də küçə etirazlarını belə təşkil edə bilməyən zəif müxalifət hakimiyyətə növbədənkənar seçkilərin qeyri-mümkünlüyü barədə mesajlar verir. Belə bir vəziyyətdə Paşinyan müxalifətin imtinasını bəhanə edərək seçkilərə getmək istəmir, ya da seçkinin elə indi keçirilməsini və təxminən 40 faiz səs toplayaraq hakimiyyətini gücləndirmək istəyir. Politoloq onu da bildirir ki, Paşinyanı dəstəkləyənlər əhalinin siyasi çaxnaşmalardan yorulmuş hissəsidir. Ermənistan əhalisi ikinci inqilab istəmir. Paşinyanın qatı əleydarlarıının sayı isə onu devirmək üçün yetərsizdir.

Bu arada qarşıdakı dövr ərzində Ermənistanda iqtisadi vəziyyətin daha da pisləşməsi gözlənilir ki, bunun da digər problemlərə səbəb olacağı, o cümlədən iqtisadi cinayətlərin miqyasının artacağına gətirib çıxaracağı istisna edilmir. Ermənistanda, ilk növbədə, mülkiyyətlə bağlı cinayətlərin sayının daha da artacağı gözlənilir və belə cinayətlərə maddi vəziyyəti ağır olan xeyli sayda insanın cəlb olunma ehtimalının kifayət qədər böyük olacağı artıq erməni sosioloqları tərəfindən səsləndirilir.

"İravnuk" qəzeti yazır ki, Ermənistan ən çox korrupsiyalaşmış ölkələr sırasında qalmaqda davam edir. Beynəlxalq təşkilatların hesabatında bildirilir ki, bu ölkədə korrupsiya halları ötən iki ildə də azalmayıb, əksinə, artıb. Korrupsiya ilə bağlı mübarizə tədbirləri heç vaxt kağız üzərindən əməli işə keçməyib.

Qeyd olunur ki, vergi ödəyiciləri arasında keçirilən rəy sorğusu da bunu təsdiqləyir. Sahibkarlıqla məşğul olmaq istəyənlər küllü miqdarda rüşvət ödədiklərini deyirlər. Onların Paşinyan hökumətinə inamı yoxdur. Ölkədə toplanan verginin korrupsiyaya qurşanmış rəsmilər və məmurlar tərəfindən mənimsənilməsi ilə bağlı çoxsaylı fakt var. Rəyi soruşulanlar vergi qanunlarının vergi ödəyicisi olan iş adamlarına eyni dərəcədə tətbiq olunmadığını qeyd edirlər.

Göründüyü kimi, Ermənistanda problemlərin miqyası kifayət qədər genişdir və cəmiyyət həyatının bütün sferalarını əhatə edir. Bu vəziyyəti düzgün dəyərləndirən ekspertlər bildirirlər ki, buna səbəb yalnız və yalnız Ermənistanın işğalçılıq siyasətinin qurbanı olması, ölkənin uzun müddət hərbi xunta tərəfindən idarə edilməsidir. Beləliklə, Ermənistan işğalçı siyasətin miras qoyduğu problemlərlə baş-başa qalıb və bundan qurtulması çox müşkül məsələdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İlin uğurlu yekunları

*Əvvəli 1-ci səh.*



## 44 günün zəfər təntənəsi

### İşğaldan azad edilən torpaqlarımızda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanında qürurla dalğalandırıldı





Vətən müharibəsində müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq və şücaət göstərərək xalqımıza Böyük Qələbə sevinci yaşadan, 30 illik Qarabağ nisgilinə son qoyan rəşadətli ordumuzun qalib əsgər və zabit heyəti möhtəşəm "Azərbaycan fanfarasının" qələbə sədaları altında qürurla addımladılar...

### Azərbaycanın müstəqillik tarixindəki ilk Zəfər paradı

Azadlıq meydanı hələ bugünə qədər belə möhtəşəm məqam yaşamamışdı. Düzdür, indiyə qədər bu meydanda çox tədbirlər, paradlar baş tutmuş, ölkənin müstəqilliyi uğrunda mitinqlər, yürüşlər keçirilmişdi. Ancaq indi Azadlıq meydanı tamam başqa bir əhvalda, coşqudaydı. Azərbaycan müstəqillik tarixindəki ilk Zəfər paradını keçirirdi.

Bu parad haqq savaşımızın qalibiyyətinə həsr olunmuşdu. Bu paradda bütün dünya bir daha "Qarabağ Azərbaycandır!" haqq nidasının hayqırtısına qulaq vermişdi...

Əslində, Azərbaycan xalqı Zəfər paradına qədər uzun yol qət etmiş, illər ərzində görülən məqsədyönlü işlər, keçilən yol nəticəsində indiki sevincli məqama yetmişdi. Xüsusilə Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının, milli birliyi və həmrəyliyi dəstəkləyən uğurlu siyasətinin məntiqi bəhrəsi olaraq uzun zamandır həsrətində olduğumuz qələbə şadyanalığını yaşayır, ürəyimizdəki yurd nisgilini birdəfəlik silirdik.

Müzəffər Ali Baş Komandanın qətiyyətli və uzaqgörən siyasəti, ordumuzdakı ruh yüksəkliyi, torpaqlarımızın bir qarışını belə düşmənə verməyəcək əzmdə olması cəbhədəki uğurlarımızın rəhni idi.

Əslində, şanlı ordumuz bu tarixi günə 2016-cı ilin "Aprel döyüşlərində", 2018-ci ilin may ayında "Günnüt əməliyyatı"nda start vermişdi. Ötən ilin Tovuz, həmçinin avqust təxribatlarında da təcavüzkarlara layiqli cavab vermiş, yerinə otuzdurmuşdu.

Amma törətdiyi təxribatlar zamanı aldığı layiqli cavablardan dərs çıxarmağı bacarmayan Ermənistan 2020-ci ilin 27 sentyabrında yenidən Azərbaycanın sərhədində təxribat törətməyə, mülki əhalini hədəfə almağa başladı. İdbar əməlləri ilə özlərinin çirkin planlarını həyata keçirmək üçün ağılsız və uğursuz bir cəhd etdi. Və elə bu ağılsız cəhdləri ilə də həm siyasi müstəvidə, həm beynəlxalq arenada, həm də hərb meydanında məğlubiyyətlərinin altına böyük bir imza atdı.

### Vətən uğrunda irəli!

Ali Baş Komandanın vətən uğrunda "İrəli" əmri ilə on minlərlə gəncimiz öz ata-baba yurdlarının harayına hay verdi. İgidlərimiz silaha sarılaraq mənfur düşmənə həddini bildirməyə tələsdilər.

Azərbaycan Ordusu bu şanlı 44 gün ərzində hər gün irəli getdi, hər gün tarix yazdı.

Qarabağ uğrunda döyüşən hünərli oğullarımızın hər birinin müqəddəs amalı qələbəni təmin etmədən geri dönməmək, bu yolda son damla qanlarınadək vuruşub düşməni darmadağın etmək idi.

And içmişdilər, öldü vardı, döndü yox!

Daim irəli atıldılar, sıldırımlar aşdılar, silah işlətmək mümkün olmayanda belə, yalın əllə düşmənin nəfəsini kəsdilər, yaralansalar da döyüşməkdən vaz keçmədilər, mənfurları diz çökdürdülər, dəmir yumruqlarının zərbəsi ilə erməni silahlılarını məhv etdilər.

Bir həmləsi ilə düşmənin murdar ayağını qarış-qarış torpağımızdan çıxarıb atan igid əsgərlərimiz xalqımıza hər gün zəfər müjdəsi verməyə, haqqın, ədalətin rəmzi olan Azərbaycanın üçrəngli müqəddəs bayrağını vətən torpağında, zirvələrimizdə dalğalandırmağa başladılar...

Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Suqovuşan, Hadrut qəsəbələri, Xocalının və Kəlbəcərin bir hissəsi, Murovdağ silsiləsi, Laçının cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi. Noyabrın 8-də Şuşa şəhərinin azad edilərək orada Azərbaycan bayrağının qaldırılması ilə şanlı müharibəmizə yekun vuruldu. Bu tarixi hadisə ilə düşmənin beli qırıldı, təslim olmağa məcbur qaldı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan təmizləndi. Beləliklə də, düşmən ən müasir silahlarla təmin olunmuş qəhrəman Azərbaycan Ordusunun qarşısında davam gətirə bilməyib təslim oldu və noyabrın 10-da təslimçilik bəyanatını imzaladı.

10 noyabr tarixi qələbəsindən düz bir ay sonra, dekabrın 10-da isə Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı parlaq qələbəyə həsr olunmuş möhtəşəm Zəfər paradı keçirildi.

Vurğulamalıyıq ki, Zəfər paradının məhz 10 dekabr tarixinə təyin olunmasının da öz dərin mənası var idi. Belə ki, sözügedən tarix Dağlıq Qarabağdakı qondarma separatçı rejim üçün simvolik önəm daşıyırdı. 1991-ci ilin bu günündə Qarabağda dırnaqarası referendum keçirilmişdi və Dağlıq Qarabağın azərbaycanlı əhalisinin iştirak etmədiyi "referendumda" ermənilər "müstəqillik" elan etmişdilər. İndi isə Azərbaycan dünya ermənilərinin hər il xüsusi təmtəraqla qeyd etdiyi bu tarixdə Qələbə paradı keçirməklə həm Ermənistana, həm də onun xarici himayədarlarına bir daha bəyan etdi ki, Qarabağ Azərbaycandır və bu, dünya durduqca belə olacaq.

### Xalqımız ona bu qələbəni yaşadan qəhrəman oğullarına fəxarətlə tamaşa etdi

10 dekabrda Azadlıq meydanında Azərbaycan xalqı ona bu qələbəni yaşadan qəhrəman oğullarına yaxından tamaşa etdi, onlarla qürurlandı, hər birinə minnətdarlıq duydu.

Sıra-sıra, cərgə-cərgə qələbə əzmiylə addımlayan qartal baxışlı igidlərimiz gözlərimizin önündən keçib getdikcə, sanki biz də 30 illik o zülməti yararaq, onlarla bərabər işıqlı sabahlara irəlilədik. Xocalının qisasının alındığı, günahsız insanlarımızın, körpələrimizin qanının yerdə qalmadığı üçün mənəvi dinclik hiss etdik...

Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin ruhunun şad olduğunu duyduq...

Zəfər paradında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan iştirak etdilər.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin bir qisminin nümayişi oldu.

Vətən müharibəsində Qələbənin əldə edilməsində çox mühüm rol oynayan pualaların, xüsusilə "İti qovan"ın ("Orbiter-1KM") nümayişi hər birimizə xüsusi zövq verdi, onların həqiqətən də işğalçını torpaqlarımızdan iti qovan kimi qovma görüntüləri bir daha gözlərimiz önünə gəldi.

Zəfər paradında "Su-25" hücum və hava dəstək təyyarələr qrupunun səmada Azərbaycanın Dövlət bayrağının təsvirini yaratması qəlblərimizi riqqətə gətirdi, üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

Azadlıq meydanına 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Dağlıq Qarabağ ərazisinin əzəli Azərbaycan torpağı olduğu kompozisiyanın üzərinə həkk olunan "Qarabağ Azərbaycandır!" şüarı ilə bir daha bəyan edildi. Və igid oğullarımızın darmadağın etdiyi düşmən texnikalarını seyr etmək bir başqa coşqu yaşatdı hər birimizə, Azərbaycanın dəmir yumruğunun qarşısında heç bir gücün, silahın, sursatın dayana bilməyəcəyini göstərdi. Cənab Prezident İlham Əliyevin Zəfər paradında vurğuladığı kimi: "...Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu, demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".




### Düşmən Azərbaycanın qalib Ordusunun dəmir yumruğunu bir daha başında hiss etdi...

Mənfur düşmən indiyə qədər keçirilən hərbi paradlarda Azərbaycan Ordusunun hansı imkanlara malik olduğunu, gücünü, qüdrətini seyr edib görmüşdü. Dekabrın 10-da isə cəmi 44 gün ərzində qarşısında diz çökdüyü, həmlələrinə boyun əydiyi qalib Azərbaycanın müzəffər Ordusunun Azadlıq meydanında qürurla addımlamasına canına düşən ömürlük vahimə ilə bir daha baxdı, bu ordunun dəmir yumruğunu bir daha başında hiss etdi...

Eyni zamanda işğalçı Ermənistanla yanaşı ona havadarlıq edən dövlətlər də Azərbaycan Ordusunun gücünün şahidi oldu. Haqq davasında çıxdıqları yolda onları heç bir gücün dayandıra bilməyəcəyinə bir daha vaqif oldu.

Xalq-Dövlət-Ordu birliyi işğalçı üzərində əbədi qələbənin möhürünü vurdu, bu birlik Vətən müharibəmizi qalibiyyətlə taclandırdı, haqq zəfər çaldı.

Müzəffər sərkərdəmiz İlham Əliyevin də Zəfər paradında qürurla vurğuladığı kimi, Azərbaycan tarixi ədaləti bərpa etdi: "Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi".

Bəli, 30 ildə dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatlarının edə bilmədiklərini Azərbaycan Ordusu cəmi 44 günə həyata keçirdi. İllərdir işğalda qalan torpaqlarını azad etdi, yüz minlərlə köçkününün ürəyindən Vətən nisgilini söküb atdı. Hər birimizə Azərbaycan tarixinin ən şanlı günlərinin şahidi olmaq kimi bəxtəvər ömür, bütöv Azərbaycan ərməğan etdi.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Səfərbərlikdən tərxis olunanların müraciətlərinə baxılması üzrə komissiya tərəfindən ümumilikdə 5298 vətəndaş qəbul edilib

Müdafiə nazirinin müvafiq əmri ilə yaradılmış səfərbərlikdən tərxis edilmiş şəxslərin qəbulu və müraciətlərinə baxılması üzrə komissiyanın fəaliyyəti davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakıda fəaliyyət göstərən komissiyaya yanvarın 11-dən 23-ü tarixi də daxil olmaqla 4214 vətəndaş müraciət edib, onların müraciətlərinin həll olunması üzrə müvafiq tədbirlər görülüb. Komissiyanın Gəncə şəhəri, Füzuli rayonu və Pirəkəşkül qəsəbəsində fəaliyyət göstərən səyyar qrupları tərəfindən isə 1084 vətəndaşın müraciətinə baxılıb, onların həll olunması üzrə müvafiq tədbirlər görülüb.

Qeyd edək ki, bugünədək komissiya və onun bütün səyyar qrupları tərəfindən vətəndaşların ümumilikdə 966 müraciəti yerində həll edilib.

# Müharibə vərdişlərinə yiyələnmiş döyüşçülərə vaxtından əvvəl və növbəti hərbi rütbələr təqdim edilib

Əlahiddə Ümumqoşun Orduda Vətən müharibəsinin iştirakçısı olmuş bir qrup hərbi qulluqçunun cəlb edildiyi ixtisas hazırlığı kursları başa çatıb. Müharibə vərdişlərinə yiyələnmiş döyüşçülərə vaxtından əvvəl və növbəti hərbi rütbələr təqdim olunub.




Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, buraxılış mərasimində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Məzunlar adından çıxış edən Elçin Əliyev söz verib ki, Vətən müharibəsində rəşadətlə döyüşdükləri kimi, bundan sonra da dövlət qayğısından və xalq-ordu birliyindən güc alaraq Vətənin müdafiəsində cəsarətlə dayanacaqlar.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət və qayğısı sayəsində hərbi infrastrukturun müasirləşdirilməsi və şəxsi heyətin nümunəvi xidməti üçün mühüm işlər görülür. Döyüş hazırlığının yüksək səviyyədə olmasının nəticəsidir ki, ərazi bütövlüyümüz uğrunda aparılan Vətən müharibəsində Əlahiddə Ümumqoşun Ordunun bir qrup hərbi qulluqçusu da iştirak edərək rəşadətləri ilə tarix yazdılar. General-polkovnik Kərəm Mustafayev kursları başa vuran məzunları təbrik edərək gələcək xidmətlərində uğurlar arzulayıb.

Çıxışların ardından məzunlara rütbə və sertifikatlar təqdim edilib.

Məzunların ixtisaslarına uyğun vəzifələrə təyin olunmaları ilə bağlı imzalanmış əmrlər şəxsi heyətə çatdırılıb və tribuna önündən təntənəli keçid olub.

# Vətən müharibəsi şəhidlərindən 2783 şəhidin 7127 ailə üzvünə sosial ödənişlər təyin olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə Prezidentin aylıq təqaüdünün, müavinət və pensiyaların təyinatı işləri yekunlaşmaq üzrədir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, postmüharibə dövrü üzrə sosial dəstək tədbirləri çərçivəsində şəhidlərimizdən 2783 nəfərin 7127 ailə üzvünə sosial ödənişlər təyin olunub.

Bu sahədə işlərin operativ şəkildə yerinə yetirilməsi məqsədilə DSMF əməkdaşları səfərbər edilib. Sosial ödəniş təyinatları üçün şəhid ailələri üzvlərindən zəruri sənədlər istənilmədən, bu sənədlər fondun əməkdaşları tərəfindən aidiyyəti qurumlardan alınaraq toplanılmaqla sosial ödənişlər təyin olunur.

Təyinatlar elektron qaydada, proaktiv şəkildə həyata keçirilir.

Aparılmış sosial ödəniş təyinatları barədə şəhid ailələri məlumatlandırılır, bir çox hallarda onlarla ünvanlarında görüşlər keçirilərək təqaüd kartları təqdim olunur.

# Ağdamın Papravənd kəndində qədim məscid və qəbiristanlıq ermənilər tərəfindən dağıdılıb









Ağdam rayonunun erməni vandalizminə məruz qalan yaşayış məntəqələrindən biri də Papravənd kəndidir.

AZƏRTAC xəbər verir ki, Papravənd kəndi Ağdam şəhərindən 21 kilometr şimalda, Ağdam-Ağdərə yolunun üstündə, dağətəyi düzənlikdə yerləşir. Vaxtilə rayonun ən abad yaşayış məntəqələrindən olan Papravənddə üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıq inkişaf etmişdi. Burada heyvandarlıq kompleksi, məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var idi. Erməni qəsbkarları 1993-cü ildə Papravənd kəndini işğal edən zaman talan edərək dağıdıblar. Ermənilər işğal etdikləri digər yaşayış məntəqələrində olduğu kimi, Papravənddə də tarixi keçmişimizi, mənəvi yaddaşımızı silmək istəyiblər. Kənddəki XVIII əsrə aid məscid və qədim qəbiristanlıq da dağıdılıb.

Son illərdə Papravənd kəndində ermənilərin qanunsuz məskunlaşması həyata keçirilib. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladığı birgə bəyanata uyğun olaraq Ağdam rayonunun digər əraziləri kimi, Papravənd kəndi də Ermənistan ordusu tərəfindən boşaldılıb.

Papravənd kəndindən görüntüləri təqdim edirik.

# Ermənistan Azərbaycanın humanist siyasətindən nəticə çıxarmalıdır

*Əvvəli 1-ci səh.*

### "Dəmir yumruq" problemi həll edə bilərmiş

Azərbaycan Prezidenti münaqişə dövründə beynəlxalq tədbirlərdə dəfələrlə bəyan etmişdi ki, bu məsələnin həlli yolu var, o da sülh danışıqlarına səmimiyyətdən keçir.

Ermənistan hər dəfə sülh danışıqlarını pozur və beləliklə də onun alternativ yolu qaçılmaz olurdu. Beynəlxalq təşkilatlar sülh vasitəsilə məsələnin həllini dəfələrlə bəyan etsələr də, Ermənistanın iki ildən bir dəyişən rəhbərliyi tamamilə bunun əksini nümayiş etdirirdi. Nəticə özünü ötən ilin noyabr ayının 10-da imzalanan kapitulyasiya aktında göstərdi: münaqişə sülh yolu ilə həll edilmədikdə "dəmir yumruq" məsələni bitirdi.

44 günlük Vətən müharibəsi Azərbaycanın haqq yolunda olduğunu təsdiqlədi. Azərbaycan, Rusiya və Ermənistanın rəhbərlərinin noyabrın 10-da imzaladığı sülh sazişinə əsasən, münaqişə və sonrakı mərhələsi olan Vətən müharibəsi zəferimizlə sona çatdı. Təcavüzkar Ermınistan bu müharibədə verdiyi hərtərəfli itkiyə görə diz çöküb, aman dilədi. Rusiyanı köməyə çağırdı və beləliklə, Qafqazda dinclik və əmin-amanlıq xatirinə Ermənistanın yalvarışları nəzərə alındı: müharibə bitdi.

Müharibəyə son qoyan (baxmayaraq ki, erməni silahlı quldur dəstələri həmin saziş imzalandıqdan sonra da Qarabağda bir neçə dəfə təxribat törətməyə çalışdı və layiq olduğu cavabı aldı) sənədin bəzi bəndlərinin icrası ilə bağlı Moskvada Rusiya Prezidenti V.Putinin təşəbbüsü ilə keçirilən üçtərəfli görüşdə bəzi məsələlərə aydınlıq gətirildi.

### 48 mindən çox erməni Dağlıq Qarabağa qayıdıb

Rusiya Prezidenti Azərbaycan və Ermənistanın rəhbərlərini atəşkəsə ciddi əməl edilməsi ilə bağlı təşəkkürünü bildirdikdən sonra yeni mərhələnin, dinc quruculuq və nəqliyyat-kommunikasiyaların bərpası ilə bağlı olduğunu deyərək diqqəti ona çəkdi ki, 48 mindən çox köçkün və qaçqın artıq Dağlıq Qarabağa qayıdıb. İnfrastruktur, energetika, yaşayış binaları, sosial infrastrukturun bərpası üçün davamlı iş aparılır. Ona görə də bugünkü görüşü son dərəcə vacib və faydalı hesab edirəm: "...Çünki razılığa gələ bildik və bölgədəki vəziyyətin inkişafına dair birgə bəyanat imzaladıq. İqtisadi əlaqələrin qurulması, infrastruktur layihələrinin inkişafı üzrə konkret addımları nəzərdə tuturam.

Bu məqsədlə üç hökumətin - Azərbaycan, Ermənistan və Rusiya baş nazirləri müavinlərinin rəhbərlik edəcəyi işçi qrupu yaradılacaq. Yaxın zamanda onlar işçi ekspert alt qrupları yaradacaq, regionun nəqliyyat infrastrukturu və iqtisadiyyatının inkişafı üzrə konkret planlar təqdim edəcəklər".

Rusiya Prezidenti əmin olduğunu da gizlətmədi ki, bu razılaşmaların icrası həm Ermənistan, həm də Azərbaycan xalqlarına və heç şübhəsiz, bütövlükdə regiona da fayda verəcək.

Noyabrın 10-da bəyanatı imzalamış hər üç ölkənin liderlərinin Moskvada toplaşması onu göstərir ki, nəticə əldə etmək, sentyabrdan noyabraadək baş vermiş hadisələrə yekun vurmaq vaxtı çatıb.

Azərbaycan Prezidenti İlham Əliyev onu da vurğuladı ki, bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir: "...Ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq".

### Ermənistan nəticə çıxarmasa, böyük problemlərlə üzləşəcək

10 noyabr tarixli birgə bəyanatın uğurla həyata keçirildiyini bildirən dövlət başçısı onu da vurğuladı ki, həmin sənədin bəndlərinin çox hissəsi yerinə yetirilib. Rusiya sülhməramlı missiyası öz işini səmərəli şəkildə aparır və iki ay ərzində kiçik insidentlər istisna olmaqla narahatlıq üçün ciddi əsas olmayıb. Bütün bunlar isə əminlik yaradır ki, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb. Gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə çalışmaq, regiondakı mövcud sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik.

Moskva görüşündə fikrini dəqiq ifadə edə bilməyən Paşinyanın düşdüyü vəziyyət onun Ermənistandakı hakimiyyət böhranını açıq şəkildə təsdiqləyirdi. "Nala-mıxa vuran" Ermənistanın baş naziri sözünün əvvəlində "Dağlıq Qarabağın statusu" məsələsinin həll olunmamasından əndişələnməsini dilə gətirməsi də, təbii ki, onun hakimiyyətinin laxlamasından irəli gəlir. Bu şaşqınlıq onun görüşdəki davranış və hərəkətlərində də özünü açıq-aşkar büruzə verirdi. O, unuda bilməzdi ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdan da öncə Dağlıq Qarabağ və onun hər hansı bir statusu "cəhənnəmə getdi!"

İndi Ermənistanın yeganə yolu Azərbaycanın humanist siyasətindən nəticə çıxarmaqdır. Bundan sonra ermənilər təxribatçı addımlar atmamalıdır. Əks təqdirdə, bunun cavabı sərt olacaq, Ermənistan böyük problemlə üzləşəcək.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# KƏNDİMİZ







# Məhsuldarlıq sözünü deyir

*Əvvəli 1-ci səh.*

Ölkəmizdə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi ilə məşğul olan fermerlər dövlətdən böyük dəstək alırlar. İndiyədək elektron kənd təsərrüfatı sistemində 546 mindən çox fermer qeydiyyatdan keçib. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 100-dən artıq özəl şirkət vasitəsilə 3000 fermerə 7260 kənd təsərrüfatı texnikasının, həmçinin 8758 baş damazlıq heyvanın satışı maliyyələşdirilib. Keçən il həmçinin 3400-dən çox fermerə mikrokreditlər verilib.

Məlumdur ki, kənd təsərrüfatında hər bir məhsulun özünün yetişdirilmə vaxtı var. Bu üzdən vaxt itkisi məhsul itkisinə səbəb olur. Odur ki, pandemiya dövründə aqrar sektorda işlərin fasiləsiz görülməsinə xüsusi diqqət yetirilir. İtkiyə yol verməmək üçün kənd təsərrüfatı texnikalarından daha səmərəli istifadə olunması daim diqqətdə saxlanılır. Məsələn, ölkənin cənub hissəsində taxıl dağlıq ərazilərə nisbətən daha tez yetişir. Odur ki, cənub rayonlarında taxıl biçildikdən sonra həmin texnikalardan dağlıq və dağətəyi rayonlarda istifadə edilir. Bu isə biçinin optimal müddətdə və itkisiz başa çatmasına imkan yaradır.

Keçən il ölkə üzrə 1 milyon hektardan artıq sahədə taxıl əkilmişdi. Amma havaların quraqlıq keçməsi səbəbindən 100 min hektar əkin sahəsində çıxış olmamışdı. Bu halda digər sahələrin vaxtında suvarılması və lazımi aqrotexniki tədbirlərin görülməsi köməyə gəldi. Nəticədə taxılçılıqda məhsuldarlıq ölkə üzrə hər hektardan orta hesabla 31,2 sentnerə çatdı. Üstəlik, suvarma problemi yaşanmayan sahələrdə məhsuldarlıq 40 sentnerədək yüksəldi. Bir çox iri fermer və pilot təsərrüfatında isə bu göstərici daha yüksək - 60 sentner oldu.

Bu rəqəmlər bir daha göstərir ki, aqrar sektorda məhsuldarlığın yüksək olmasında su önəmli rol oynayır. Ona görə də su çatışmazlığı problemini aradan qaldırmaq məqsədilə ölkəmizdə koordinasiya komissiyası yaradılıb. Komissiya həm də fermerlərin suvarma suyuna olan tələbatının ödənilməsində ədalət prinsipini bərpa edir. Yeri gəlmişkən bildirək ki, Kənd Təsərrüfatı Nazirliyi "Meliorasiya və Su Təsərrüfatı" ASC ilə birlikdə suyun bölüşdürülməsini tənzimləmək üçün 57 rayon üzrə 674 mindən çox su qrafiki tətbiq edib. Hazırda əkin sahələrinin suvarılması bu yolla həyata keçirilir.

Keçən il kənd təsərrüfatında bitkiçilik məhsullarının artımı müşahidə edilib. İlkin məlumatlara görə, ölkə üzrə 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz çox tərəvəz, 4,2 faiz çox meyvə və giləmeyvə, 15 faiz çox tütün, 2,1 faiz çox kartof istehsal edilib. 2020-ci il həmçinin pambıqçılıq üçün də uğurlu olub. Belə ki, 100 min hektar pambıq sahəsindən 335 min tondan çox məhsul götürülüb, orta məhsuldarlıq 2019-cu illə müqayisədə 4 sentner artaraq 33,5 sentnerə çatıb. Tütünçülük üzrə məhsuldarlıq isə 2019-cu illə müqayisədə 19,3 sentnerdən 22,1, şəkər çuğunduru üzrə 328 sentnerdən 481, çəltik üzrə 29,9 sentnerdən 32,8 sentnerə yüksəlib.

Heyvandarlığın inkişafına da diqqət artırılıb. Xüsusilə daha çox ət və süd məhsulları istehsalına imkan verən yeni cins mal-qaranın baş sayının artırılmasına kifayət qədər böyük maraq var. Bunun üçün yeni damazlıq təsərrüfatları da yaradılıb. Nəticələr özünü çox gözlətməyib: ötən il ət istehsalında 3,1, süd istehsalında isə 1,7 faiz artım qeydə alınıb.

Son dövrlər aqrar sektorda bağçılığın inkişafı da unudulmur. Hazırda yüksək əlavə dəyər yaradan intensiv və superintensiv bağlar ümumi bağların 14 faizini təşkil edir. Dövlət yüksək məhsuldarlığa malik olan intensiv üsulla fındıq, zeytun, nar və sitrus bağlarının salınması üçün cari ildə fermerlərə birdəfəlik əlavə dəstək verəcək. Bu dəstək, sözsüz ki, ölkədə meyvəçilikdə daha yüksək göstəricilərə nail olmağa, həmçinin ixracı artırmağa imkan yaradacaq.

Prezident İlham Əliyev sözügedən müşavirədə bağçılığın inkişafının önəmini vurğulayaraq demişdir: "Kənd təsərrüfatı məhsullarının çeşidini artırmalıyıq. Ənənəvi bazarlar qalmaq şərti ilə biz yeni bazarlara çıxmalıyıq. Hesab edirəm ki, azad olunmuş torpaqlarda kənd təsərrüfatı, xüsusilə bağçılıq sahəsində çox ciddi inkişaf edə bilər. Çünki meyvə məhsulları istənilən bazarda qəbul olunur. Burada ənənəvi bazarlarımızın iqlimini nəzərə alsaq, əlbəttə ki, bizim meyvəmizlə heç bir başqa meyvə rəqabət apara bilməz".

Bu keyfiyyətləri torpağımızda yetişən bir çox digər məhsullara da şamil etmək olar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# 2020-ci il goranboylular üçün təkcə erməni terroru ilə yadda qalmayıb

## Ötən il rayonun sosial-iqtisadi inkişafı da davam edib




*Əvvəli 1-ci səh.*

Məlum olduğu kimi, rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Ötən il rayon üzrə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 15,2 faiz artmışdır ki, bu da dövlət tərəfindən fermerlərə verilən hərtərəfli dəstək nəticəsində mümkün olmuşdur. 2020-ci ildə 67 min 700 ton taxıl istehsal olunmuş və hər hektardan məhsuldarlıq 31,6 sentnerə çatmışdır. Həmçinin 2775,6 hektardan 9,6 min ton pambıq, 8 hektardan 14,7 ton tütün toplanmışdır.

Rayonda aqrar sahənin inkişafında "Region Aqro"nun xüsusi payı var. Belə ki, 4,7 min hektar sahədə yaradılmış Goranboyun Aqroparkında 2 min hektar sahədəki "pivot" və meyvə bağları üçün damcılama suvarma sistemləri quraşdırılmışdır. Parka 11 kilometrlik avtomobil yolu, Şəmkir Maşın kanalından 12,1 kilometrlik su kəməri çəkilmiş, burada 400 min kubmetrlik 2 su anbarı, 18 min tonluq taxıl anbarı, toxum-paketləmə zavodu, inzibati və yardımçı binalar inşa edilmişdir. Park üçün həmçinin 64 texnika alınmışdır. 1,4 min hektarda taxıl, 93 hektarda yonca əkilmiş Aqroparkda 150 nəfər işlə təmin edilmişdir. Gələcəkdə Aqroparkın ərazisinin genişləndirilərək 5200 hektara çatdırılması nəzərdə tutulur.

Goranboy suvarma suyu ilə təminatda əziyyət çəkən rayonlar sırasındadır. Odur ki, sudan qənaətlə istifadə edilməsi üçün bütün qüvvələr səfərbərliyə alınmışdır. Hazırda Subartezian Quyularının İstismarı İdarəsinin balansında olan 895 subartezian quyusu, 4 nasos stansiyası 43.000 hektar torpaq sahələrinin suvarılmasına xidmət edir. Əkin sahələrinin suvarılmasının yaxşılaşdırılması məqsədi ilə Prezidentin müvafiq sərəncamına əsasən 2020-ci il ərzində 60 subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur. Onlardan 52-si qazılmışdır, 8-nin qazıntı işləri isə davam edir. Ümumilikdə son 17 il ərzində rayon üzrə 189 subartezian quyusu qazılmışdır.

Keçən il Suvarma Sistemləri İdarəsinin suvarma suyuna olan tələbatının ödənməsi üçün mühüm irəliləyişlər olmuşdur. Belə ki, Şəmkir Maşın Kanalı vasitəsilə rayona 3 kubmetr həcmində su verilmişdir ki, bu da təxminən 10 min hektar ərazinin su ilə təmin olunması deməkdir. Bundan başqa, Suqovuşan kəndinin düşməndən azad olunması ilə eyniadlı su anbarından Goranboy rayonuna suvarma suyunun verilməsinə başlanmışdır. Bu su ilə 8500 hektar torpaq sahəsi suvarılır.

2020-ci ildə Goranboyun yol-nəqliyyat təsərrüfatında da əsaslı işlər görülmüşdür. Hazırda ümumi uzunluğu 38 km olan Əlirzalı-Təklə-Aşağı Ballıqaya-Səfikürd-Rəhimli avtomobil yolu yenidən qurulur, Aşağı Ağcakənd-Buzluq-Mənəşli-Todan avtomobil yolunun tikintisi üçün isə layihə sənədləşmə işləri aparılır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Kəndli razılıq edir

## Özünüməşğulluq proqramı yerlərdə məmnunluqla qarşılanır

Ramiz Hüseynov Biləsuvar rayonunun Xırmandalı kəndində yaşayır. Ailəsi dörd nəfərdən ibarətdir - özü, həyat yoldaşı və iki azyaşlı uşağı. Sağlamlığı ilə bağlı problemi var, ikinci qrup əlildir. Həyat şəraitini yaxşılaşdırmaq üçün özünüməşğulluq proqramına qoşulmağı qərara alaraq Dövlət Məşğulluq Agentliyinin Biləsuvar şəhərindəki 14 saylı ərazi məşğulluq mərkəzi filialına müraciət etmişdir. Komissiya üzvləri heyvan saxlamağa imkanı olduğunu nəzərə alıb onu qeydiyyata götürmüşlər.



Qoyulmuş prosedur qaydalarını keçdikdən sonra keçən ilin noyabr ayında R.Hüseynova 21 baş qoyun verilib. Onlardan 20 başı dişi, 1 başı erkəkdir. Qoyunları qışdan sağlam və gümrah çıxarmaq üçün Ramizə 400 kiloqram qüvvəli yem də verilib. Üstəlik, qapısına gətirilməsi üçün sürücüyə verilən 40 manatı da dövlət ödəyib.

Bu günlər R.Hüseynovun dövlət dəstəyi ilə yaradılmış hələlik kiçik olan təsərrüfatı ilə tanış olduq. Qoyunları saxladığı tövləyə, habelə yem yığdığı talvara baxdıq. Normal idi. Dedi ki, sağ olsunlar, müraciətimi nəzərə aldılar: "21 baş qoyun az deyil. Alıb gətirəndən sonra 5-i doğub, qalanları da boğazdır. Novruz bayramına kimi balalayarlar". Sonra sözünə davam etdi: "Mən özüm baytar-texnikəm. Kənddə də gözümüzü açıb qoyun-quzu, mal-qara görmüşük. Onu saxlamaq mənim üçün çətin deyil. Hər gün səhər və axşamüstü yaxınlıqdakı çayın kənarına çıxarıb otarıram. Qoyunçuluq gəlir gətirən sahədir. Ancaq gərək zəhmətini çəkəsən, özünə əziyyət verəsən. O da zəhmətini itirməyəcək, birinin yerinə iki bala verəcək. Üstəlik, hələ yunu da var".

R.Hüseynov şövqlə, həvəslə danışırdı. Arzuları da böyük idi. Bu isə başlıca şərtdir: "İnşallah, qoyunların sayını bu il 50 başa çatdıracağam. Öhdəmdə olan 2 hektar pay torpağımızın müəyyən hissəsini yonca əkmişəm ki, yem sarıdan korluq çəkməyim. Biçəcəyim yoncanı da vaxtında kip bağlatdıracağam. Qoyun zərif heyvan olduğu üçün gərək hər şeyi nəzərə alasan".

İşsizlərin sayının azaldılması Azərbaycanda həyata keçirilən sosial siyasətin ən mühüm tərkib hissəsidir. Bununla əlaqədar dövlət ardıcıl tədbirlər görür. Artıq keçən ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin yerlərdə ərazi nümayəndəlikləri fəaliyyət göstərir. Biləsuvar şəhərində yerləşən 14 saylı ərazi məşğulluq mərkəzinin filialı Biləsuvar, Cəlilabad, Masallı və Yardımlı rayonlarının əhalisinə xidmət edir. Filialın həmin rayonların hər birində nümayəndəliyi var. Yeni qurum özünüməşğulluğun daha səmərəli, şəffaf və obyektiv təşkili ilə məşğuldur. Bu zaman ilk növbədə dövlətdən ünvanlı sosial yardım alanlar, əlillər, işsiz kimi bir ildən artıq qeydiyyatda olanlar, pensiya yaşına 2 ildən az qalanlar, habelə cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslər nəzərə alınır. Özünüməşğulluq proqramı zamanı əsasən həmin kriteriyalara üstünlük verilir.

Onu da qeyd edək ki, filial tərəfindən yaradılan komissiyanın tərkibi yerli inzibati ərazi nümayəndəliklərinin, bələdiyyələrin, digər müvafiq qurumların və ictimaiyyət nümayəndələrinin arasından seçilmiş şəxslərdən formalaşdırılır. Onlar birlikdə özünüməşğulluq üçün ərizə vermiş şəxsin mənzil-məişət şəraitini öyrənirlər. Müraciət edən şəxs özünüməşğulluqla bağlı lazımi şəraiti olduğu halda qeydiyyata alınır. Sonrakı mərhələdə istədiyi sahə üzrə özünüməşğulluqla əlaqədar təlimə cəlb edilir. Sertifikatı olan müəllimlər onlara işin xüsusiyyətlərini öyrətməklə yanaşı, biznes planı hazırlamağı da öyrədirlər. Bundan sonra onların bilik səviyyəsi komissiya tərəfindən yoxlanılır. Qiymətləndirmədən uğurla keçən şəxslər seçdiyi biznes planına uyğun aktivlərlə təmin olunurlar. Sonuncu mərhələ isə belədir: komissiya bir il müddətində monitorinqlər aparır, bir ildən sonra yoxlanılaraq əmlak vətəndaşın şəxsi mülkiyyətinə verilir. Prinsip ondan ibarərdir ki, verilən mülkiyyət bir il ərzində inkişaf etdirilir, vətəndaş dövlət asılılığından çıxır, təsərrüfatını genişləndirir və məhsul bolluğu yaradılmasında yaxından iştirak edir. Bütün bunlar R.Hüseynov kimi çoxlarının ürəyincədir. Düşüncə və ürəklə görülən hər bir iş isə səmərəsiz qalmır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Fevralın 1-dən birdəfəlik əkin subsidiyası üçün müraciətlərin qəbuluna başlanılır

2021-ci ildə intensiv üsulla salınacaq 6 növ meyvə bitkisi (portağal, narıngi, limon, fındıq, zeytun, nar) bağlarına görə birdəfəlik subsidiya ödəniləcək fermerlər bağın salındığı vaxtdan 4 il ərzində hər hektara görə yüksək əmsallı (3.5) əkin subsidiyalarını da alacaqlar.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, yeni intensiv bağların salınması üçün xərcləri qismən kompensasiya etmək məqsədilə bu il salınacaq limon bağlarının hər hektarına 11000 manat, portağal və narıngi bağlarına 9000 manat/ha, nar bağlarına 5000 manat/ha, zeytun bağlarına 4900 manat/ha, fındıq bağlarına 4400 manat/ha birdəfəlik əkin subsidiyası ödəniləcək. Bu məbləğlərdən əlavə, bağ sahiblərinə hər hektara görə 700 manat əkin subsidiyası veriləcək. Yeni bağların salınmasını stimullaşdırmaq üçün bu subsidiya məbləği bağın salındığı ilk 4 il ərzində ayrılır.

Birdəfəlik subsidiya üçün fermerlər 1 fevral - 31 may aralığında müraciət edə bilərlər. Bağ salacaq fermer əkin subsidiyasına edilən müraciət qaydasında istifadə hüququna dair torpaq sənədi ilə EKTİS-də qeydiyyatdan keçməlidir. Fermerin ərazisinin koordinatları bəyan zamanı EKTİS-ə daxil ediləcək və CİS (coğrafi informasiya sistemi) vasitəsilə monitorinqi aparılacaq. Subsidiyanı ala bilmək üçün əsas şərt bağın 2021-ci ildə salınmış, monitorinq dövründə tinglərin intensiv bağ qaydalarına uyğun əkilmiş və damcı suvarma sisteminin qurulmuş olmasıdır. Fındıq, zeytun, nar bitkiləri ilə bağlı əlavə şərtlər barədə məlumat veriləcək. Bu şərtlərə sahib olmayan meyvə bağlarına isə tək əkin subsidiyası ödəniləcək.

Qeyd edək ki, Aqrar Subsidiya Şurası 2019-cu ildə intensiv üsulla salınmış fındıq bağlarının hər hektarına ilk 4 il ərzində 400 manat verilməsini qərara almışdı. Yeni qərarla həm qərzəkli, həm qərzəksiz intensiv meyvə bağlarının ilk 4 ildə alacağı subsidiya məbləği 700 manat/ha olub. 4 ildən sonra isə bağların hər hektarına görə bağ sahibi 240 manat subsidiya alacaq.

Birdəfəlik subsidiya məbləği müraciət təsdiqləndikdən sonra "Fermer Kartı"na köçürüləcək. Vəsaitin 75 faizi həmin bağların salınması üçün tinglərin alınmasına, gübrə və pestisidə xərclənə biləcək və ya bu istiqamətdə əvvəlcədən alınan borclara yönləndiriləcək. Vəsaitin bağların salınması üçün istifadə edilən suvarma sisteminin qurulmasına və kredit borclarına yönləndirilməsi mümkün olacaq. Vəsaitin 25 faizi isə fermer tərəfindən nağdlaşdırılaraq bağların salınması üçün digər xərclərə (aqrotexniki xidmət və s.) istifadə oluna bilər.

Xatırladaq ki, ötən ildən fermerlər subsidiya üçün Elektron Kənd Təsərrüfatatı İnformasiya Sistemi üzərindən onlayn müraciət edir və subsidiyalar "Fermer Kartı"na ödənilir.

# Ötən il Azərbaycanda 1,8 milyon tondan çox buğda biçilib

2020-ci ildə 100,3 min hektar sahədə pambıq, 11 min hektar sahədə dən üçün günəbaxan, 5 min hektar sahədə şəkər çuğunduru və 3,1 min hektar sahədə tütün əkilib.



Dövlət Statistika Komitəsinin məlumatına görə, dənlilərin və dənli paxlalı bitkilərin tərkibində payızlıq və yazlıq buğda əsas yer tutur. Ötən il istehsal olunmuş taxıl məhsulunun 57,3 faizini (1 milyon 867,3 min ton) buğda, 31,3 faizini (1 milyon 20,1 min ton) arpa, 9,9 faizini (321,9 min ton) qarğıdalı, 0,3 faizini (9,9 min ton) çəltik, 0,7 faizini (21,7 min ton) paxlalılar, 0,5 faizini (16,2 min ton) isə digər dənli bitkilər təşkil edib.

# Kələntərli kəndinin su dəyirmanı

Bərdə rayonunun Kələntərli kəndindəki su dəyirmanı bütün bölgədə məşhurdur. Həmin dəyirmanda istehsal olunan unun yüksək keyfiyyəti istehlakçılar tərəfindən yüksək dəyərləndirilir.

Bu günlər yolumuzu adını eşidib özünü görmədiyimiz dəyirmandan saldıq. Kələntərli kəndinin sakini İsmayıl Əliyev ötən əsrin sonlarında öz təşəbbüsü ilə sadə və sərfəli kiçik bir dəyirman qurub. Bu, o vaxtlara təsadüf edirdi ki, onda ölkədə çörək qıtlığı vardı. Bərdə şəhərinin, eləcə də rayonun əksər kəndlərinin əhalisi yeganə çörək zavodunun ümidinə qalmışdı. O zaman çörək zavodunda hətta gecələr də uzun növbə olardı.

İsmayıl Əliyev camaatı bu problemdən xilas etmək üçün öz təşəbbüsü və yaradıcılığı ilə sadə prinsiplə çalışan kiçik bir dəyirman qurdu. Qərbi Azərbaycanın Dərələyəz mahalından olan İsmayılın uşaqlığı Göyçədə keçib. Orada Arpa çayının sahilindəki su dəyirmanında un üyütdüklərini şirin xatirə kimi unutmur. Kələntərli kəndində dəyirman tikməyə qərar verəndə də məhz o xatirələr karına gəldi.

Dəyirman üçün vacib olan əsas şərt dayanıqlı su mənbəyi idi. O da burda vardı. Köhnə Mayom arxının kənarında bünövrə töküb tikinti işlərinə başladı. Çox qısa bir zamanda dəyirmanı işə saldı. Yavaş-yavaş sorağı ətrafa yayıldı. İndi qonşu rayonlardan da gəlib buradan un alırlar. Dəyirmanın gündəlik istehsal gücü 250-300 kiloqramdır. Bu undan bişirilən çörəyin dadı da, ətri də fərqlidir. Axı dəyirmanda hər şey təbiidir. Hər hansı bir kimyəvi qatqıdan söhbət gedə bilməz. Bu dəyirmanı, onun məhsulunu adamlara sevdirən də məhz təbii olmasıdır.



Sağ ol, İsmayıl kişi, halal olsun çörəkdən qazandığın çörək sənə!

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Heyvandarlıq üzrə rəqəmlər açıqlanıb

Keçən il hər inək və camışdan orta hesabla 1687 kiloqram (2019-cu ildə 1653 kiloqram) süd sağılıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, ilkin məlumatlara görə, yanvarın 1-i vəziyyətinə ölkə üzrə 8 milyon 156,9 min baş qoyun və keçi, 2 milyon 647,9 min baş iribuynuzlu mal-qara, o cümlədən 1 milyon 280,2 min baş inək və camış mövcud olub.

2020-ci il yanvarın 1-nə nisbətən qoyun və keçilərin sayı 32,3 min baş azalıb, iribuynuzlu mal-qaranın sayı 1,3 min, inək və camışların sayı 2 min və donuzların sayı 344 baş artıb. İribuynuzlu mal-qaranın 48,3 faizini inək və camışlar təşkil edir.

# Biz birlikdə güclüyük!

## Sistemli tədbirlər bəhrəsini verir





*Əvvəli 1-ci səh.*

Hazırda xəstəxanada yatanların 70-75 faizi 50 yaşdan yuxarı insanlardır. Bundan sonra isə daha aşağı yaş qrupları üçün peyvənd istehsalçıları ilə həm ikitərəfli, həm də COVAX təsisatı ilə əməkdaşlığımız nəticəsində müzakirələrimiz davam etdiriləcək və ölkəmizə vaksinlər gətiriləcək".

Qeyd edək ki, Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş vaksinasiya strategiyasında COVID-19 infeksiyası əleyhinə vaksinasiya ilə əhatə olunan əhali qrupları sosial cəhətdən və tibbi cəhətdən yüksək risk qrupu olaraq ayrılır. Sosial cəhətdən yüksək risk qrupuna səhiyyə işçiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular, təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət", "DOST" mərkəzləri, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorları və provayderlərin əməkdaşları, poçt sahəsində, bank sektorunda birbaşa əhali ilə təmasda olan işçilər aiddirlər.

Tibbi cəhətdən yüksək risk qrupuna yaşı 65-dən yuxarı olan, yəni yaşlı əhali, tənəffüs sisteminin xroniki xəstəlikləri, xroniki hemodializ xəstələri, II tip şəkərli diabetdən əziyyət çəkən 50 yaşdan yuxarı əhali, 18 yaşından yuxarı piylənmədən əziyyət çəkənlər aiddir.

### Koronavirusla bağlı müsbət tendensiya əldə olunub

Pandemiya ilə mübarizənin hərtərəfli davam etdirilməsi ölkəmizdə qarşıya qoyulan prioritet vəzifələrdən biridir. Dövlət öz üzərinə düşən hər şeyi edir, vətəndaşlarını maksimum dərəcədə qoruyur, bu istiqamətdə ən düzgün və ciddi ölçülüb-biçilmiş addımlar atır. Vaksinasiya prosesinin başlaması da bu qəbildəndir. Bu, Azərbaycan dövlətinin öz vətəndaşlarının maksimum şəkildə qorumasının növbəti əyani sübutudur.

Vaksinasiyaya qədər çox böyük işlər görülüb. Qısa müddət ərzində rmodul tipli xəstəxanalar yaradılıb, maska istehsal edən müəssisələr fəaliyyətə başlayıb, dərman təminatı yüksəldilib, tibb işçiləri fədakarlıq göstəriblər.

Məhz bunların nəticəsidir ki, koronavirusla mübarizədə uğurlu nəticələr əldə edilməkdədir. Hazırda vəziyyət stabildir. Karantin rejimi, sosial məsafənin qorunması və maska taxmaq zərurəti virusun yayılma sürətini azaldıb. Gündəlik yoluxma göstəricisi də xeyli aşağı düşüb. Bütövlükdə, pandemiya vəziyyəti nəzarət altına alınıb, insanların COVID-19 virusuna kütləvi yoluxma hallarının azaldılmasına nail olunub. Aktiv xəstə sayı 7 mindən azdır. Bu isə o deməkdir ki, Azərbaycanda həyata keçirilən çevik və sistemli tədbirlər öz bəhrəsini verir. Eyni zamanda sağalmanın yoluxmanı üstələməsi, həm də bu istiqamətdə fərqin getdikcə böyüməsi onu deməyə əsas verir ki, pozitiv tendensiya artıq özünü təsdiqləyib.

### Əyani tədris mərhələli şəkildə bərpa edilir

Müsbət tendensiya sərt karantin rejimində bir sıra yumşaldılmaların tətbiqinə rəvac verib. Artıq yanvarın 18-dən sərtləşdirilmiş xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin bir qismi yumşaldılıb. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, sözügedən tarixdən 5 şəhər və 12 rayonda yaşayış yerini və olduğu yeri SMS icazə, icaze.e-gov.az portalı və xidməti vəsiqə əsasında tərk etmək sistemi ləğv olunub.

Yanvarın 25-dən muzey və sərgi zallarının, ticarət obyektlərinin (ictimai iaşə obyektləri, kafe, çay evləri və bu kimi məkanlarda müştərilərə yerində xidmət və iri ticarət mərkəzlərinin, "Mall"ların fəaliyyəti istisna olunmaqla), bərbərxanaların, gözəllik salonlarının fəaliyyətinə və kosmetik xidmətlərə, şəhərlərarası və rayonlararası hərəkətə icazə verilir.

Fevralın 1-dən isə ümumi təhsil müəssisələrində əyani tədris mərhələli şəkildə bərpa ediləcək. Həmin tarixdən etibarən məktəbəhazırlıq qrupları, icma əsaslı məktəbəqədər təhsil qrupları və ibtidai təhsil səviyyəsi üzrə tədrisin sanitar-gigiyenik tələbləri nəzərə alınaraq ənənəvi formada təşkili nəzərdə tutulur. İbtidai siniflər üzrə əyani təhsilin iri şəhərlərdə, o cümlədən Bakı, Sumqayıt və Abşeronda həftədə 3 dəfə, digər bölgələrdə isə həftədə 4-5 dəfə olmaqla bərpası planlaşdırılır. Fevralın 1-dən sonrakı müddətdə isə V-IX siniflərdə təhsil alan şagirdlərin tədrisə ənənəvi qaydada cəlb olunması barədə qərar veriləcək.

Fevralın 1-dən eyni zamanda ölkə ərazisində ictimai iaşə obyektlərində, restoran, kafe, çay evləri və bu kimi digər məkanlarda müştərilərə saat 06:00-dan 00:00-dək yerində xidmətlər də bərpa olunur.

Hər kəs ümid edir ki, vaksinasiya prosesi genişləndikdən sonra ölkədə vəziyyət daha da qənaətbəxş olacaq. COVID-19-a qarşı peyvənd pandemiya ilə mübarizədə çox önəmli təsirə malikdir. Tam güvənli şəkildə normal həyatımıza qayıdış nə qədər insanın peyvənd olunub immunitet qazanmasından asılıdır. Bu, zaman tələb edən bir dövrdür. Bu səbəbdən peyvənd olunduqdan sonra da maska və sosial məsafə qaydaları öz qüvvəsində qalmalıdır. Çünki vaksinlər ilk dozada öz təsirini dərhal göstərməyə bilər. Yoluxmamaq və virusu yaymamaq üçün gigiyena qaydalarına əməl etməli, hər zamankından diqqətli olmalıyıq. Hazırda əsas məqsəd əldə olunmuş pozitiv tendensiyanı qoruyub saxlamaqdır. Əks halda ehtiyatı əldən verərək, yoluxma sayının yenidən yüksəlməsinə səbəb ola bilərik. Odur ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydaların icrası, qoruyucu vasitələrdən istifadə, gigiyena qaydalarına riayət edilməsi, məhdudlaşdırıcı tələblərin yerinə yetirilməsi zəruridir.

Normal həyata qayıtmaq hamının arzusudur. Amma bu arzunu reallaşdırmaq üçün bütün qaydalara, tövsiyələrə riayət etməliyik. Ümid edək ki, vaksinasiya prosesi tam başa çatandan sonra bir ildir qorxulu kabus kimi bəşəriyyətin başı üstünü almış COVID-19 təhlükəsi sovuşacaq və həyat əvvəlki məcrasına qayıdacaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## *Həkim-infeksionist:* "Əhalinin 60 faizdən çoxu kütləvi şəkildə vaksinasiya olunarsa, bu zaman təsirli nəticədən danışa bilərik"

"Ölkəmizdə bir aydan çox sərt karantin rejimi tətbiq olundu. Nəticədə koronavirusa yoluxma sayında kifayət qədər azalma müşahidə edildi. Hazırda COVID-19 əleyhinə vaksinlərin gəlməsi və tətbiqinin başlaması ilə bağlı olaraq karantin rejimi müəyyən qədər yumşaldıldı. Ümid edirəm ki, yanvarın 18-dən başlanan vaksinasiya prosesini yaxın günlər ərzində geniş əhali kütləsi arasında tətbiq edə biləcəyik. Bu da sərt karantin rejiminə bir daha ehtiyac yaranmamasına ümid verir". AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) İnfeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Nəzrin Mustafayeva deyib.


NƏZRIN MUSTAFAYEVA

"Bəzi vətəndaşlar elə düşünürlər ki, vaksin olunandan sonra bu infeksiyadan 100 faiz qorunmuş olacaqlar və daha izolyasiya qaydalarına riayət etməyə, maska taxmağa, gigiyena qaydalarını, sosial məsafə prinsiplərini gözləməyə ehtiyac qalmayacaq. Bu, tamamilə yanlış fikirdir. Çünki əhali arasında hələ də xəstəlik keçirməyənlər, həssas qruplar var. Biz virus daşıyıcısı ola bilərik. Peyvənd tətbiq olunduğu gündən bir ay keçəndən sonra qoruyuculuğunu göstərməyə başlayır. Belə ki, ilkin doza tətbiq olunur. Ondan 21 gün sonra ikinci doza vurulur. İkinci dozadan təxminən 10 gün sonra müəyyən qədər qoruyucu hesab olunmaq olar. Çünki orqanizmə yeridilən vaksin immun sisteminə təsir göstərir və müəyyən immun zülalların formalaşmasına kömək edir. Formalaşma prosesi də müəyyən qədər vaxt alır. Odur ki, vaksin vurdurandan dərhal sonra onun effekt göstərməsi mümkün deyil.

Pandemiyalarla, xüsusilə respirator pandemiyalarla mübarizədə bir neçə mərhələ var. Bütün dünya, o cümlədən ölkəmiz həmin mərhələlərdən keçib. Onların heç biri ideal mexanizm hesab olunmur. Hər bir tədbirin üstün və çatışmayan cəhətləri var. Növbəti tətbiq olunan tədbir özündən əvvəlkinin boşluqlarını doldurur. COVID-19 pandemiyası zamanı bəzi vətəndaşları maska istifadəsi və gigiyena qaydaları ilə qoruduq. Həmin üsullarla qoruna bilməyənlər kütləvi məkanlardan uzaq durmaqla mühafizə olundular. Bəziləri özlərində xəstəliyi vaxtında aşkarlayıb izolyasiya olunmaqla ətrafdakıları qorudular. Son və ən effektiv mərhələ isə sırf vaksinasiya mərhələsidir. Vaksinasiya özündən əvvəlki boşluqları doldurmaqla ideala yaxın bir nəticə əldə etməyimizə kömək edə bilər. Dünyada, o cümlədən ölkəmizdə əhalinin heç olmasa 60 faizdən çoxu qısa müddət ərzində kütləvi şəkildə vaksinasiya olunarsa, bu zaman təsirli nəticədən danışa bilərik", - deyə N.Mustafayeva deyib.




Onun sözlərinə görə, Azərbaycan Çin istehsalı olan "Sinovac" şirkətinin peyvəndinə üstünlük verdi: "İkitərəfli danışıqlar davam etdirilir. Yaxın gələcəkdə ölkəmizə digər vaksinlərin də gətirilməsi nəzərdə tutulub. Ümid edirəm ki, ilin sonunadək başqa vaksinlərdən faydalanmaq imkanımız olacaq".

Həkim-infeksionist bildirib ki, dünyanın hər yerində COVID-19 və ya başqa xəstəlik əleyhinə peyvənd üçün məcburiyyət yoxdur. Ölkəmizdə də bu proses tam könüllü əsaslarla aparılacaq. Məcburiyyət olmasa da çalışırıq ki, insanları maksimum şəkildə bu prosesə cəlb edək. Vətəndaşlara vəziyyəti düzgün izah etməklə onların könüllülüyünü təmin etmək lazımdır.

"Dünyada bir qrup şəxslər var ki, peyvəndləmə prosesinin qəti əleyhinədirlər. Bu peyvəndin yan təsirləri ilə bağlıdır. Peyvəndin yüngül və ciddi yan təsirləri var. Yüngül yan təsirlərə peyvənd olunan nahiyədə qızartı, şişkinlik, müəyyən istilik, ümumi bədən temperaturunun yüksəlməsi, halsızlıq aiddir. Vaksin orqanizmdə müəyyən xəstəlik əlaməti formalaşdırmalıdır ki, ona qarşı immun sistemimiz aktivləşsin və immunitet formalaşsın. Bu hallar bir neçə gün ərzində baş verə bilər və əhəmiyyətsizdir. Ciddi yan təsirlərə anafilaktik şok, yəni allergik reaksiya aiddir ki, o da ilk 30-40 dəqiqə ərzində baş verir. Onsuz da peyvənd olunanlar 20-30 dəqiqə müddətində vaksin vurdurduqları məntəqədə gözləmə zalında nəzarətdə olacaqlar. Bu da çox nadir hallarda ölümlə nəticələnir. Yəni bu milyonda bir halda baş verə biləcək hadisədir. Belə hal daha çox əks-səda doğuracaq, nəinki peyvəndin müsbət tərəfləri. İstənilən dərman preparatına qarşı da insanda allergik reaksiya, anafilaktik şok baş verə bilər. Təəssüf ki, insanlar peyvəndin və ya hansısa dərman vasitəsinin yaxşı tərəfini düşünmürlər. Yəni kimsə peyvənd olundu xəstələnmədi, faydasını gördü hissəsini deyil, xəstələndisə və ya hansısa reaksiya, yan təsir baş verdisə, onu yadda saxlayırlar. Bu da əhali arasında sürətlə yayılır, nəinki yaxşı təsirlər. Bu münasibət COVID xəstəliyinə qarşı da var. Daha çox bu xəstəlik səbəbindən vəfat edənlərin sayını yadda saxlayırlar, sağalanların sayı diqqətdən kənarda qalır. İnsanlar arasında təşvişə səbəb olan da məhz belə hallardır", - deyə N.Mustafayeva qeyd edib.

Mütəxəssisin sözlərinə görə, peyvənd vurdurmaq üçün əks-göstəriş yoxdur: "Xəstəliyi keçirib qanında İgG formalaşanlar da peyvənd vurdura bilərlər. Yetər ki, xəstəliyin aktiv dövründə olmasınlar. Xəstəlikdən yeni sağalmış şəxslərə belə peyvənd vurula bilər. Elmi olaraq bunun üçün heç bir əks-göstərişi yoxdur. Tədqiqatlar göstərir ki, son 6 ay ərzində xəstəliyi keçirmiş şəxslərdə immunitet davam edir, yəni onlar qoruyucu hesab olunurlar. Peyvəndə tələbat daha çox olduğu və vaksin sayı az olduğu üçün həmin şəxsləri müəyyən müddət peyvəndləmə prosesindən uzaqda saxlamaq tövsiyə olunur. Əgər sistemdə son altı ay ərzində pozitiv nəticəsi qeydə alınan şəxs varsa, o, peyvənd üçün müraciət etdikdə sistemdə görünəcək. Həmin şəxslər bir müddət peyvəndə cəlb olunmayacaqlar. Digər qruplara, yəni əhalinin xəstəliyi keçirtməyən hissəsinə, keçirmiş olsa belə risk qrupuna daxil olan şəxslərə ilkin olaraq daha çox üstünlük veriləcək.

18 yaşına qədər uşaqlara peyvənd vurdurmaq olmaz, çünki onlar üzərində sınaqlar həyata keçirilməyib və nəticələr yoxdur. Hazırda COVID xəstəsi olanlar yalnız sağaldıqdan sonra peyvənd oluna bilərlər. Hamilə qadınlara xüsusilə ilk trimestrdə vaksin vurdurmaq tövsiyə olunmur. Onlarda risk qiymətləndirilməsi aparılmalıdır. Əgər risk qrupundadırlarsa, yanaşı xəstəliyi, xəstəliyi ağır keçirmə ehtimalları varsa, işi ilə əlaqədar olaraq insanlarla çox sıx təmasdadırlarsa, bu halda növbəti trimestrlərdə hamilələrin həkimləri ilə məsləhətləşərək onlara vaksin vurula bilər. Ciddi immunsupressiv vəziyyətdə olanlara, məsələn, orqan transplantasiyası keçirən xəstəyə peyvənd vurulmasına dair qəti əks-göstəriş yoxdur. Həmin şəxslər risk qrupuna daxildirlərsə, onlar həkimləri ilə məsləhətləşmədən və immun statusları dəyərləndiriləndən sonra peyvənd oluna bilərlər.

Bir neçə ay öncə ölkəmizdə qrip peyvəndinin tətbiqinə başlanılıb. Hazırda bu proses də davam etdirilir. İnaktiv peyvəndlərdə peyvənddən iki həftə sonra növbəti vaksin vurula bilər. Qrip, meninqokok, pnevmokok, hepatit A, B əleyhinə vaksin vurulanlar iki həftədən sonra koronavirusa qarşı peyvənd oluna bilərlər. Canlı peyvənd - suçiçəyi, vərəm əleyhinə vaksin vurduranlar isə bir aydan sonra koronavirusa qarşı peyvənd oluna bilərlər".

## Koronavirusdan 705 nəfər sağalıb, 162 nəfər isə yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 705 nəfər müalicə olunaraq sağalıb, 162 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 228 min 688 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 219 min 724 nəfər müalicə olunaraq sağalıb, 3072 nəfər vəfat edib. Aktiv xəstə sayı 5892 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 354 min 473 test aparılıb. Dünənki test sayı isə 6522-dir.




## Tərtərdə karantin rejimini pozan çayxana aşkar edilib

Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən koronavirus pandemiyası ilə mübarizə çərçivəsində elan edilmiş karantin rejiminin tələblərinin pozulmasının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Tərtər RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində rayonun Xoruzlu kəndi ərazisində karantin qaydalarına zidd olaraq müştərilərə yerində xidmət göstərən çayxana aşkar edilib. Həmin obyektin icarədarı Elbrus Həziyevin barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilərək cərimə olunub.



## Qəbələdə dünənədək 450 tibb işçisi peyvənd olunub

Koronavirus pandemiyasının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən vaksinasiya tədbirləri çərçivəsində Qəbələ rayonunda da əhalinin COVID-19 infeksiyasına qarşı peyvənd olunması prosesi uğurla davam edir.



Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, əhalinin peyvəndlənməsi Qəbələdə ötən il istifadəyə verilən modul tipli xəstəxana kompleksində həyata keçirilir. İlkin mərhələdə rayona 900 doza vaksin gətirilib. Vaksinasiya kampaniyasının ilk günlərində rayonda 450 tibb işçisinə peyvəndin birinci dozası vurulub və proses davam edir. Peyvəndin ikinci dozası 21 gündən sonra vurulacaq.

Qeyd edək ki, Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" təsdiq edilib. Strategiyaya uyğun olaraq vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri, yaşı 65-dən yuxarı olan şəxslər və hüquq mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb edilən heyət peyvəndlənəcək. Strategiyanın əsas məqsədi ölkədə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır.












# Tarixin izi ilə





● Daş yaddaşımız

# Xalqımız milli-mənəvi, dini dəyərlərini hər zaman yaşadacaq

## Ermənilərin Azərbaycana qarşı terror əməllərinin hədəflərindən biri də tarixi abidələrimiz olub



**Müzəffər Azərbaycan Ordusu tərəfindən Qarabağın erməni işğalından azad edildiyi gün ümid dolu, zəfər ünvanlı tariximizin ilk səhifəsi yazıldı. Ermənistan silahlı qüvvələrinin təcavüzündən xilas edilən ərazilərimiz Azərbaycan dövlətinin və xalqının iradəsi ilə tezliklə bərpa ediləcək. Erməni vandallarının xarabaya çevirdikləri yurdlarımız abadlaşacaq. Düşmənin viran qoyduğu, uçurub dağıtdığı, od vurub yandırdığı evlərin, məktəblərin, xəstəxanaların, kitabxanaların yerlərində yeniləri tikiləcək.**

Ancaq mənfur düşmənin ağlagəlməz qəddarlıqla həyata keçirdiyi vandal əməllər unudulmayacaq. Düşmən otuz ilə yaxın işğal altında saxladığı ərazilərimizdə ən ağır cinayətlər törədib.

Ermənilərin Azərbaycana qarşı işğalının və terror əməllərinin hədəflərindən biri də məhz tarixi abidələrimiz olub. Ötən əsrin sonuncu onilliyindən 2020-ci ilin 8 noyabrınadək Ermənistan silahlı qüvvələrinin işğal altında saxladıqları ərazilərimizdə erməni vandalları yalnız Azərbaycan üçün deyil, bütövlükdə bəşəriyyət üçün böyük əhəmiyyət daşıyan tarixi abidələri dağıdıb, məhv ediblər.

O yerlərdə xalqımızın Qarabağdakı varlığını, milli kimliyimizi özündə daşıyan minlərlə mədəni və dini abidə vardı. Qədim diyarda bu mədəniyyət inciləri yalnız xalqın tarixini deyil, eyni zamanda milli-mənəvi yaddaşını qoruyub saxlayırdı. Bu baxımdan ermənilərin abidələri, qədim məbədlərimizi məhv etmələri onların mənfur xislətini açıq-aydın büruzə verir. Uzun illər daşnaklar bu yolla əzəli torpaqlarımızdan həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı silməyə, məhv etməyə cəhd ediblər.

### Erməni vandalizmi...

Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azərbaycanda tarixən müxtəlif dini və mədəni abidələr mövcuddur. Əsrlərdir dinindən, dilindən, milli mənsubluğundan asılı olmayaraq ölkəmizdə yaşayan hər bir xalqa məxsus bu mədəni incilər yüksək səviyyədə qorunub.

Ermənilər Azərbaycanın otuz ilə yaxın işğal altında saxladıqları ərazilərində mövcud olan, xalqımızın qədim tarixini, milli kimliyini, dini ənənələrini özündə ehtiva edən abidələri uçurub dağıdıblar. Həmin abidələrin erməniləşdirilməsinə cəhd göstəriblər. Bu məqsədlə bir çoxunu təmir adı altında dəyişdirməyə çalışıblar, təhqir ediblər.

Mədəniyyətimizə, tarixi abidələrimizə qənim kəsilən erməni vandallarının təmir-bərpa işləri bəhanəsi ilə Qarabağın incisi Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa məscidinin daxili interyerində ciddi dəyişiklik etməsi, tarixi abidənin bədii-estetik dəyərlərinə zərər vurması, bu abidənin Azərbaycan xalqına mənsub olmaması barədə əsassız iddialar irəli sürməsi, Ağdamın işğalından bir il sonra orada yandırılan Cümə məscidindən tövlə kimi istifadə etmələri və digər bu kimi yüzlərlə fakt bütün dünya ictimaiyyətinə məlumdur. Eləcə də işğal edilmiş rayonlarımızda yerləşən və erməni kilsəsinə heç bir aidiyyəti olmayan tarixi Alban xristian kilsələrinin mülkiyyəti mənimsənilib, arxitektura xüsusiyyətləri dəyişdirilərək erməni abidələri kimi təqdim olunmağa cəhd edilib.

2020-ci ilin 27 sentyabrından başlayan, 44 gün davam edən Vətən müharibəsi günlərində də düşmən öz mənfur xislətini göstərdi. Belə ki, Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutması hərbçilərimiz, mülki şəxslərimizlə yanaşı, abidələrimizdən də yan keçmədi. İşğalçıların yaşayış məntəqələrinə istiqamətlənmiş atəş zərbələrinin Füzuli rayonunun Babı kəndinin yaxınlığında yerləşən qəbiristanlığa düşməsi nəticəsində dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli tarix-memarlıq abidəsi olan Şeyx Babı türbəsinə və Gəncədəki tarixi abidəyə ziyan dəymişdir.

### Düşməndən qisasımızı aldıq

Beynəlxalq konvensiyalarda bəşəri cinayət kimi qiymətləndirilən bu əməllər bütün dünya mədəniyyətinə qarşı təcavüzdür.

Prezident İlham Əliyev öz çıxışlarında hər zaman ermənilərin tarixi-mədəni və dini abidələri vəhşicəsinə dağıtmasına diqqət çəkir, erməni vandallığını sərt tənqid edir. Dövlət başçısı həmçinin beynəlxalq təşkilatların bu prosesə vaxtında yetərincə həssas və duyarlı münasibət göstərmədiklərini də vurğulayır.

Dövlət başçısı İlham Əliyev xalqa müraciətlərində ermənilər tərəfindən Azərbaycanın tarixi-mədəni irsinin silinməsi cəhdlərinə son qoyulacağını, ərazi bütövlüyümüz tam bərpa edildikdən sonra dağıdılmış bütün abidələrimizin, məscidlərimizin bərpa ediləcəyini bildirib. Noyabrın 10-da qalib ölkənin Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı olaraq xalqa müraciət edən İlham Əliyev deyib: “ Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq”.

Azərbaycan güclü dövlət olduğunu təkcə Ermənistana deyil, bütün dünyaya göstərdi. Erməni terrorizminə və vandalizminə layiqli cavab verdi.

Yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev həyata keçirilmiş və qarşıya qoyulan böyük işlərdən danışıb: “Azad edilmiş ərazilərə biz bundan sonra da xarici nümayəndələri, jurnalistləri, diplomatik korpus nümayəndələrini, Azərbaycana səfər edən nümayəndə heyətlərini dəvət etməliyik. Misal üçün bu ay ISESCO-nun nümayəndə heyətinin səfəri gözlənilir... Yaxşı olardı ki, nümayəndə heyətinin bəzi üzvləri azad edilmiş ərazilərə getsinlər, ermənilərin, Ermənistan rəhbərliyinin dağıtdığı məscidlərə də baş çəksinlər, o məscidlərin qalıqlarına da baxsınlar və bütün dünya müsəlmanlarına bu barədə daha dolğun məlumat versinlər. Nəinki dünya müsəlmanlarına, bütün dünyaya ki, bizim tarixi, dini abidələrimiz düşmən tərəfindən necə dağıdılıb”.

Azərbaycan dövlətinin diqqəti və qayğısı, xalqın əzmi və sevgisi ilə düşmənin viran qoyduğu ərazilərimizdə həyat yenidən canlanacaq. Biz öz milli-mənəvi, dini dəyərlərimizi hər zaman yaşadacağıq.

*Zöhrə FƏRƏCOVA,*
*“Azərbaycan”*

● Erməni işğalçılarının dağıtdığı abidələr

# Saatlı məscidi



**Azərbaycanın tarix və mədəniyyət incisi sayılan Şuşa şəhəri 2020-ci il noyabrın 8-də müzəffər Azərbaycan Ordusu tərəfindən erməni əsirliyindən qurtulub. Artıq qədim və gözəl şəhərimizin intizarına son qoyulub. Azad Şuşa tezliklə öz doğma sakinlərini qarşılayacaq.**

Şuşa işğaldan əvvəl qədim abidələrlə zəngin bir məkan idi. Şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları vardı. Həmçinin 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri mövcud idi. Tədqiqatçıların yazdıqlarına görə, bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib, həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayi Səfərəli tərəfindən bəzədilib. 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilib. Xan qızı Natəvanın evi, Qarabağ xan sarayı, Vaqif türbəsi, Mirzə Salah bəy Zöhrabbəyovun yaşayış evi, Şuşa kurqanı, Şuşa mağara düşərgəsi, Şuşa qalası və digər abidələr bu zəngin məkanın tarixi-memarlıq qoruğuna daxildir.

Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərinin memarlıq abidələrindən biri də Saatlı məhəlləsində yerləşən tarixi məsciddir. Bu məcidin də memarı Kərbəlayi Səfixan Qarabağidir. Belə ki, Saatlı məscidi Qarabağda bir neçə monumental dini və mülki tikilinin, o cümlədən Şuşada Aşağı və Yuxarı Gövhər ağa məscidləri, Ağdamda cümə məscidi və Bərdə İmamzadə türbəsinin müəllifi olan Azərbaycan memarı Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında 1883-cü ildə inşa edilib. Bu barədə məlumat məscidin əsas fasadında yerləşdirilmiş inşaat kitabəsində verilib. Abidə memarın son əsərlərindən biri hesab edilir.

Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qeydiyyata alınıb.

Məscidin inşa edildiyi yerdə əvvəl Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub. Şuşanın düz fasadlı məcidlərindən olan Saatlı məscidi əsas fasadında assimetrik girişə malikdir. Saatlı məscidini Şuşanın digər məhəllə məscidlərindən fərqləndirən əsas xüsusiyyət onun minarəyə malik olmasıdır. Belə ki, şəhərdəki bu tip digər məscidlərin damında müəzzin üçün kiçik köşk yerləşdirilsə də, Saatlı məscidi üçün rəngarəng kərpiclərdən istifadə olunaraq zəngin naxışlarla bəzədilmiş minarə inşa edilib.

Aşağı və Yuxarı Gövhər ağa məscidlərindən fərqli olaraq Saatlı məscidinin minarəsi məscid binası ilə birləşik deyil və minarəyə giriş məscidin daxilindən yox, həyətindən həyata keçirilir. Saatlı məscidinin Divanxana meydanından effektiv görünən, ifadəli rəngarəng vertikalı ilə özünəməxsus kompozisiya silueti yaradan minarəsi yerləşdiyi küçənin memarlıq ansamblında tamamlayıcı rol oynayır. Minarənin üstü çadır formalı gümbəzlə tamamlanır.

Məscidin interyerlərinin işlənməsində qabartma və yapma bəzəklərdən bol istifadə olunub. Məsciddə restavrasiya işləri 1980-ci illərdə aparılıb.

Təəssüf ki, 1992-ci il mayın 8-də Şuşa şəhəri Ermənistan tərəfindən işğal olunduqdan sonra bu məscid də xarabalığa çevrilib, onun zəngin interyeri tamamilə, minarəsi isə qismən dağıdılıb.

*Z.FƏRƏCOVA,*
*“Azərbaycan”*

● Danışan tarix

# Eyniadlı, eynitaleli iki abidə




**Füzuli şəhərində, eləcə də bu rayonun digər kəndlərində qədim abidələr, məscidlər çoxdur. Onlardan ikisi rayonun Qarğabazar kəndində yerləşir. Biri məsciddir. El arasında Şah Abbas məscidi kimi tanınır. Qarabağın ən qədim məscidlərindəndir. Elmi ədəbiyyatlarda isə adı fərqli - Hacı Qiyasəddin məscidi kimi qeyd olunur. Səbəbi məscidin qapı çatı üzərindəki kitabədə “Bu məscidi Böyük Allahın mərhəmətli bəndəsi Hacı Qiyasəddin tikdirib h. t. 1095” yazılmasıdır. Bu da miladi tarixi ilə 1683-1684-cü ilə uyğundur.**

Məscid eyvansızdır. Yerli daş materiallarından inşa olunmuş bir zaldan ibarət olub. Dam örtüyü tağtavan şəklindədir. Tikilinin giriş qapısı nəzərə alınmasa, ağac materialından istifadə edilməyib. Məscid kəndin mərkəzindəki sal qayalı təpənin üstündə inşa edilib. Onunla eyni dövrdə - XVII əsrdə inşa olunan karvansara isə həmin təpənin cənubunda yerləşir. Tədqiqatçıların məlumatına görə, karvansara və məscid konstruksiyasının memarlıq təhlili hər iki abidənin eyni memar tərəfindən inşa edildiyini deməyə əsas verir.

Qarğabazar kəndində tikildiyi üçün Qarğabazar karvansarası adı ilə tanınan karvansara 1681-ci ildə inşa olunub. Karvansara həmin kəndin mərkəzində, çox da hündür olmayan bir təpənin döşündə tikilib. Tikilinin eni 23,7 metr, uzunluğu isə 34,7 metrdir. Bu tarixi abidəyə bəzən Şah Abbas karvansarası da deyirlər. Karvansaranın memarının adı məlum deyil.

Qarğabazar karvansarası memarlıq üslubuna görə Alban dövrü memarlıq ənənələrinin bənzəridir. Girişin sağ və sol tərəflərində gözətçi otaqları qarşısında iki böyük sal daş var. Araşdırıcıların fikrincə, gözətçilər həmin daşların üstündə dayanıb, karvansaraya daxil olan karvanların yüklərinə baxırmışlar.

Qeyd edək ki, Azərbaycanın erməni işğalı altında qalmış digər yerlərində olduğu kimi, Füzuli rayonunun ərazisindəki qədim, tarixi abidələrimiz də dağıntıya məruz qalıb. Hacı Qiyasəddin məscidi də erməni vandalları tərəfindən dağıdılıb. Qəddar düşmənin xain əlləri məscidin yaxınlığında yerləşən karvansaraya da uzanıb.

Azərbaycanın daşınmaz tarixi abidələrindən hesab edilən bu karvansara da erməni vandallığının qurbanı olub. XX əsrin sonuncu onilliyində Qarğabazar kəndinin işğalından sonra ermənilər bu tarixi-memarlıq abidəsini mal tövləsinə çevirmişdilər...

*“Azərbaycan”*

● Fakt və rəqəmlər



Rəsmi məlumata görə, işğal altındakı Azərbaycan torpaqlarında təsbit olunan tarixi-dini abidələrin sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır.

İşğal olunmuş Azərbaycan ərazilərində Ermənistanın maddi-mədəni irsimizi məhv etməsi təkcə Azərbaycana qarşı deyil, həm də ümumbəşəri sivilizasiyaya qarşı törədilən vəhşilik və vandalizm aktıdır.

2020-ci ildə qəhrəman Azərbaycan ordusu tərəfindən məğlubiyyətə uğrayan erməni işğalçıları bu vandalizmə görə də cavab verməlidirlər.

● Yadigarlar

# Məmmədbəyli türbəsi



**Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji abidə, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji abidə, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri dağıdılıb. Həmçinin bu ərazilərdə 40 mindən çox əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisəsi düşmən tərəfindən yerlə-yeksan edilib.**

Professor İbrahim Zeynalovun “Zəngilan rayonu tarixi abidələr yurdudur - Məmmədbəyli türbəsi” adlı araşdırmalarında qeyd edilir ki, Zəngilan rayonu Azərbaycanın özünəməxsus tarixi keçmişə malik bölgələrindəndir: “...Rayon ərazisindən axan Şərəkə çayının hövzəsində özünün tarixi ornamenti ilə seçilən onlarca türbə var. Bunlardan biri də ordumuz tərəfindən düşmən işğalından azad edilən Məmmədbəyli kəndindəki səkkizguşəli Yəhya ibn Məhəmməd türbəsidir. 1304-1305-ci illərdə inşa edilmiş türbə memarlıq-konstruktiv formasına görə digərlərindən seçilir. Türbə səkkizbucaqlı şəkildə inşa edilib və yuxarısı piramidalı günbəzlə tamamlanır. Divarları isə yonulmuş daşla çox səliqəli formada üzlənib. Bu müqəddəs ocaq kəndin ən hündür yerində, yaşıllıqlar arasında yerləşir. Məmmədbəyli türbəsi haqqında ilkin məlumatı XX əsrin 40-cı illərində rus tarixçisi İvan Şeblıkin (1884-1947) verib...”

Abidə memarlıq quruluşu cəhətdən Füzuli rayonunda inşa edilən digər türbələrdən fərqlənir. O, Azərbaycanın bürcvari abidələrinə bənzəyir. Bu tarixi yadigarın illər öncə çəkilən şəkillərindən görünən odur ki, abidənin karnizi qara rəngli daşdan işlənib, tikintisində isə çay daşlarından istifadə edilib. Türbənin divarı yükdaşıyıcı kütləyə və üzlüyə bölünür. Üzlük eyni zamanda divarın əsas hissəsini təşkil edir.

Türbənin günbəzi iki qatdan ibarətdir. Daxili günbəz sferik, xarici günbəz isə piramidal formadadır. Deyilənə görə, bu abidədən Həkəri çayının digər sahilində Şərifan kəndinə yeraltı tunel var imiş. 1975-ci ildə ilk dəfə yeraltı sahə təmizlənərkən türbənin sərdabəsi üzə çıxıb. Sərdabənin döşəməsi yaxşı cilalanmış daşlarla hörülüb. Orta əsrlərdə belə türbələr feodal əyanlarının və varlı şəxslərin qəbri üstündə ucaldılarmış.

Türbənin maraqlı və orijinal kitabəsi də diqqəti cəlb edir. Adi sıradan çıxıb sətirdən yuxarıda qaldırılmış kəlmələr pozulub getmiş, lakin izi qalmış müəmmalı sözlər çətinliklə oxunur. Kitabə qapı yerindən yuxarı qövsvari çatılmış bütöv daş üzərində həkk olunub. Ölçüsü 1,45 x 0,90 metrdir. Nəsx xətti ilə yazılmış altı sətirlik ərəbdilli kitabə oyma üsulunda işlənilib. İlk dörd sətirdə müqəddəs Qurani-Kərimdən ayələr verilir. İki sətirdə türbənin Məhəmməd əl-Hacın oğlu Yəhyanın şərəfinə hicri tarixi ilə 704-cü ildə (miladi 1305-ci il) tikildiyi göstərilib. Müəlliflərin verdiyi məlumata görə, binanın memarı və bənnası Əli Məcdəddindir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*“Azərbaycan”*

# Heydər Əliyev Sarayı və Bilkent Simfonik Orkestri birgə konsert proqramları hazırlayacaqlar

Heydər Əliyev Sarayının direktoru Ramil Qasımov və Bilkent Simfonik Orkestrinin müdiri Aydın Mecid və musiqi direktoru Nüsrət İspir arasında videokonfrans formatında görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, videokonfransda çıxış edən Ramil Qasımov artıq bir neçə mötəbər konsert zalının və musiqi kollektivlərinin rəhbərləri ilə ənənəvi hal alan görüşlərin böyük əhəmiyyətini vurğulayıb. Görüşdə qeyd olunub ki, tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksəksəviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Dil, din, mədəniyyət, adət və ənənələrin ortaq olması Azərbaycan və Türkiyəni həmişə bir-birinə doğma edib və hər iki ölkə bir-birilərinə daim maddi və mənəvi dəstək, kömək olmaqla qardaşlıqlarının əbədi olduğunu sübut etmişlər.

Ramil Qasımov əminliklə bildirib ki, pandemiya bitdikdən sonra Heydər Əliyev Sarayı və Bilkent Simfonik Orkestrinin birgə həyata keçirəcəyi layihələr sayəsində mədəni münasibətlərimiz yeni mərhələyə qədəm qoyacaq.

Sonda videokonfransa yekun vuran Ramil Qasımov mədəniyyət xadimlərinə təşəkkürünü bildirib və gələcəkdə yeni layihələrlə bağlı görüşlərin keçirilməsinin münasibətlərimizə yeni mühüm töhfələr bəxş edəcəyini deyib.

Qeyd edək ki, Türkiyə və 12 ölkənin seçmə sənətçilərindən ibarət Bilkent Simfonik Orkestri bu xüsusiyyətlərinə görə Türkiyənin ilk özəl, akademik, beynəlxalq sənət cəmiyyəti hesab olunur. Bilkent Simfonik Orkestri qurulduğu 1993-cü ildən bugünə kimi dünyanın məşhur dirijor və solistləri ilə birgə konsertlər verib, bir çox beynəlxalq səviyyəli festivallarda iştirak edib. Həmçinin müxtəlif qurumlar, təşkilatlar və xüsusən qeyri-hökumət təşkilatları ilə olan geniş əməkdaşlığına görə "Ümumdünya Qardaşlıq və Dünyada Sülhə Töhfə" mükafatının sahibidir. UNICEF tərəfindən 2009-cu ildə "Türkiyə yaxşı niyyət elçisi" elan edilib. Bilkent Simfonik Orkestri 2006-cı ildə Azərbaycanda Heydər Əliyev Sarayında möhtəşəm konsert proqramı ilə çıxış edib.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# "Azercell" nümunəvi xidmət keyfiyyəti ilə daim irəlidədir

## Mobil operator bütün xidmət kanalları üzrə müştəri məmnuniyyəti səviyyəsini qoruyub saxlamaqdadır

Müasir texnologiyaların və biznes həllərin köməyilə abunəçilərinin gündəlik rabitə ehtiyaclarını rahat şəkildə qarşılamağı hədəfləyən ölkənin lider mobil operatoru "Azercell Telekom" hazırda bütün mümkün platformalar üzərindən xidmət spektrini davamlı şəkildə genişləndirir.

2020-ci ilin böyük hissəsini əhatə edən sosial təcrid şəraitinə baxmayaraq, "Azercell"in müxtəlif xidmət kanalları müştəri müraciətlərini daha intensiv və operativ cavablama sistemini tətbiq edərək bu sahədə yüksək göstəricilərə nail oldu. Beləliklə, 2020-ci ildə "Azercell"in Telefon Mərkəzinə ümumilikdə 3,950,821 zəng daxil olmuş, bunlardan 95%-i cavablandırılmış, onlayn müştəri xidmətləri üzərindən 449,337 sayda sorğu daxil olmuş və bunların 98%-i cavablandırılmış, Premium dəstək xəttinə daxil olmuş 119,602 müraciətin isə 96%-i cavablandırılmışdır. Qeyd edək ki, telefon vasitəsilə daxil olmuş müraciətlərin ortalama cavablama müddəti təxminən 2 dəqiqə təşkil edir ki, bu da çox yüksək göstərici nümunəsidir. "Azercell"in Telefon Mərkəzi üçün 2020-ci ildə müştəri məmnuniyyəti səviyyəsi 94% təşkil edib. "Azercell" şirkətinin il ərzində rəsmi "Facebook", "Instagram", "Twitter", "Youtube" və Linkedin səhifələrindən toplam 134,350 müraciət daxil olaraq əməkdaşlar tərəfindən cavablandırılmışdır. Fərqli kanallar vasitəsilə daxil olan müraciətlər əsasən mobil internet xidmətləri, balans barədə məlumat, ödəmə, xidmətlərə qoşulma və s. ilə bağlı olub. Bundan əlavə, 2020-ci il ərzində şirkətin Ön Masa, "Azercell" Ekspres, "Azercell" Eksklüziv ofislərində, eləcə də Mobil Müştəri Xidmətləri vasitəsilə 949, 292 nəfər abunəçiyə üz-üzə xidmət göstərilib.

Qeyd etmək yerinə düşər ki, 44 günlük Vətən müharibəsi zamanı gücləndirilmiş və gərgin iş rejiminə baxmayaraq, "Azercell" əməkdaşlarının səyi nəticəsində bütün kanallar vasitəsilə xidmət keyfiyyəti ən yüksək səviyyədə saxlanıldı. Belə ki, ən son statistikaya əsasən onlayn kanallar vasitəsilə daxil olmuş müraciətlər 100% cavablama göstəricisinə qədər yüksəlib.

Hətta COVID-19 pandemiyası ilə əlaqədar tətbiq olunan uzunmüddətli sərt karantin rejimində "Azercell" Müştəri Xidmətləri fasiləsiz olaraq onlayn şəkildə fəaliyyət göstərib, yaşı 65-dən yuxarı olan abunəçilərə isə Səyyar Müştəri Xidmətləri tərəfindən pulsuz xidmət təqdim olunub.

Şirkət sosial şəbəkələr üzrə müştərilərə göstərilən xidmət səviyyəsi, müraciətlərin cavablandırılması üzrə dəfələrlə beynəlxalq sertifikatlara layiq görülüb. "Azercell"in istifadəyə verdiyi "Kabinetim" tətbiqi isə müştəri məmnuniyyətinin artırılması, şikayətlərin dərhal həlli istiqamətində atılmış böyük addımlardan biri olub.

"Azercell" şirkəti ölkədə qurduğu Müştəri Xidmətləri sisteminin ən yüksək dünya standartlarına uyğun olduğunun nümunəsi kimi ISO 18295:2017 və ISO 10002:2018 beynəlxalq sertifikatlaşma standartlarına da layiq görülüb. ISO 18295:2017 bilavasitə Müştərilərlə Əlaqə Mərkəzlərinin İdarə edilməsi Sahəsində Beynəlxalq Sertifikat, ISO 10002:2018 isə Keyfiyyətin İdarə Olunması /Müştəri Məmnuniyyəti /Müəssisələrdə Şikayətlərə Baxılmasına dair təlimatlar standartına uyğunluq sertifikatlardır.

"Azercell Telekom" MMC bundan sonra da müştəri xidmətləri və müştəri məmnuniyyətinin ən yüksək standartlara uyğunluğu və abunəçi sorğularının çevik və rahat şəkildə cavablandırılması istiqamətində fəaliyyətini davam etdirəcək.

***"Azərbaycan"***



## Türkiyənin şərqində "Eren" əməliyyatının yeni mərhələsi başlayıb

Dünən Türkiyənin şərqində yerləşən Ağrı vilayətində polis xüsusi təyinatlıları və jandarmanın 1040 əməkdaşının iştirakı ilə "Eren" antiterror əməliyyatının üçüncü mərhələsi başlamışdır.

Türkiyənin Daxili İşlər Nazirliyinin verdiyi məlumatda bildirilir ki, "Eren" antiterror əməliyyatları PKK terrorçularının tapılıb məhv edilməsi məqsədilə cari il yanvarın 11-dən keçirilir. Əməliyyatın ilk iki mərhələsi Tendürək və Lice rayonlarında aparılmışdır.

# Beynəlxalq aləm

## Bağdadın hava limanı raket atəşinə məruz qalıb

Yanvarın 23-nə keçən gecə Bağdadın Beynəlxalq Hava Limanı raket atəşinə tutulub. Bu barədə İraqın Müdafiə Nazirliyi məlumat verib.

Bildirilir ki, hava limanı istiqamətinə üç raket mərmisi atılıb. Mərmilərdən ikisi liman ərazisində partlayıb. Üçüncüsü isə paytaxtın qərbindəki Cihad rayonunda yaşayış binasına zərər vurub. Tələfat və xəsarət alanlar barədə məlumat verilmir. Bu raket atəşinə görə hələ heç bir qruplaşma məsuliyyəti üzərinə götürməyib.

Qeyd edək ki, Bağdadın Beynəlxalq Hava Limanında ABŞ-ın "Viktoriya" hərbi bazası yerləşdiyi üçün ərazi tez-tez hücumlara hədəf olur.

## Vaşinqtonda Milli Qvardiyanın 200-ə yaxın döyüşçüsü koronavirusa yoluxub

ABŞ-ın 46-cı Prezidenti Co Baydenin andiçmə mərasimi zamanı təhlükəsizliyi təmin etmiş Milli Qvardiyanın 200-ə yaxın döyüşçüsü koronavirusa yoluxmuşdur. Bu barədə "Wall Street Journal" qəzeti Pentaqondakı mənbələrə istinadən xəbər verir. Məlumatda xəstəliyin yayılmasının səbəblərindən biri kimi döyüşçülərin paytaxtdakı yaşayış şəraiti, ilk növbədə, sosial məsafənin qorunmaması göstərilir.

Xatırladaq ki, Ağ evin yeni sahibinin inauqurasiyası zamanı təhlükəsizliyi təmin etmək üçün paytaxta təxminən 26 min milli qvardiyaçı gətirilmişdir.

## Zimbabvedə həftə ərzində üç nazir COVID-19-un qurbanı oldu

Zimbabvedə bir həftə ərzində üç nazir yeni tip koronavirusa yoluxaraq dünyasını dəyişmişdir. Bu barədə xəbəri "Sinxua" agentliyi yayıb.

Dünən rəsmi orqanlar təsdiqləmişlər ki, ölkənin nəqliyyat və infrastrukturun inkişafı naziri Coel Matiza COVID-19-dan vəfat etmişdir. O, həftə ərzində virusdan vəfat edən üçüncü, ötən ilin martında Zimbabvedə ilk yoluxma halları aşkarlandığı vaxtdan bəri isə dünyasını dəyişmiş dördüncü hökumət üzvüdür. Qeyd edək ki, yanvarın 15-də əyalət işləri məsələləri üzrə nazir Elen Qvaradzimba, yanvarın 20-də isə daxili işlər naziri Sibusiso Moyyo koronavirusun qurbanı olmuşlar.


## "Azərişıq" ASC Xaçmaz rayonunun Armudpadar, Padar, Sərkərli, Üçgünqışlaq və Yergüc kəndləri ərazisində 10 kV-luq hava xətlərinin, 10/0,4 kV-luq KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərin quraşdırılması işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1:** Xaçmaz rayonunun Armudpadar, Padar, Sərkərli, Üçgünqışlaq və Yergüc kəndləri ərazisində 10 kV-luq hava xətlərinin, 10/0,4 kV-luq KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərin quraşdırılması işlərinin satın alınması

**İştirak haqqı - 1200 manat**

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**Kod: 200189**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namiq Heybətov (telefon: 440-39-93, daxili (92-19))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
- *müvafiq işlər üzrə lisenziya və sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04 mart 2021-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 15 mart 2021-ci il saat 16:00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 mart 2021-ci il saat 16:00-da Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


## Vəzifəli şəxsin qanunsuz hərəkətləri ilə bağlı cinayət işi başlanıb

Pandemiya dövründə COVID-19 virusunun yayılmasının qarşısının alınması, onun törədə biləcəyi fəsadların aradan qaldırılması və bu kimi əhalinin sağlamlığının qorunmasına yönəlmiş effektiv dövlət siyasətinə yol verdikləri korrupsiya hüquqpozmaları ilə ziyan vuran vəzifəli şəxslərin ifşa olunması istiqamətində prokurorluq orqanlarının kompleks tədbirləri davam etdirilir.

Baş Prokurorluğunun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi Salyan Rayon Gigiyena və Epidemiologiya mərkəzinin direktoru vəzifəsində işləyən Abuşov İntiqam Mirzağa oğlunun qanunsuz hərəkətləri barədə toplanmış materiallar əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələri ilə cinayət işi başlanıb.

Aparılmış təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri ilə İntiqam Abuşovun rəhbərlik etdiyi Mərkəzdə işləyən həkim heyətinə COVID-19 pandemiyası ilə əlaqədar əlavə hesablanan əməkhaqlarının bir qismini qeyri-qanuni yolla onlardan tələb edərək almasına əsaslı şübhələr müəyyən olunub. Bundan başqa, araşdırmalar zamanı İntiqam Abuşovun tabeliyində işləyən bir neçə işçi ilə qanunsuz olaraq əvvəlcədən razılaşaraq onlara məxsus əməkhaqqı kartlarını özündə saxlamaqla, həmin şəxslərə köçürülən aylıq məvacibləri əldə etməsinə, eləcə də tabeçiliyindəki əməkdaşların mütəmadi olaraq işə gəlməməklə əmək stajının hesablanması şəraitinin yaradılması müqabilində 2013-2020-ci illər ərzində müxtəlif məbləğlərdə pul vəsaitini şəxsən və ya vasitəçidən istifadə etməklə onlardan rüşvət qismində almasına da əsaslı şübhələr müəyyənləşdirilib.

Hazırda cinayət işi üzrə İntiqam Abuşovun digər qanunsuz hərəkətlərinin aşkarlanması, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin və vurulmuş ziyanın tam həcminin müəyyənləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

İstintaqın nəticəsindən asılı olaraq İntiqam Abuşovun və digər vəzifəli şəxslərin əməllərinə hüquqi qiymət veriləcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin kollektivi general-mayor Akif Yusifova anası

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov Azərbaycanın Belçika Krallığında və Lüksemburq Böyük Hersoqluğundakı fövqəladə və səlahiyyətli səfiri, Avropa İttifaqı yanında Nümayəndəliyinin rəhbəri Fuad İsgəndərova atası

**ELDAR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildir və dərin hüznlə başsağlığı verir.

---

Siyavuş Heydərov, Allahverdi Zeynalov, Natiq Abuzərli Azərbaycanın Belçika Krallığında və Lüksemburq Böyük Hersoqluğundakı fövqəladə və səlahiyyətli səfiri, Avropa İttifaqı yanında Nümayəndəliyinin rəhbəri Fuad İsgəndərova atası

**ELDAR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Göyçaydan Nazim İsmayılov Azərbaycanın Belçika Krallığında və Lüksemburq Böyük Hersoqluğundakı fövqəladə və səlahiyyətli səfiri, Avropa İttifaqı yanında Nümayəndəliyinin rəhbəri Fuad İsgəndərova atası

**ELDAR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Nadir Nəsibov Azərbaycan Respublikasının Belçika Krallığında və Lüksemburq Böyük Hersoqluğundakı fövqəladə və səlahiyyətli səfiri, Avropa İttifaqı yanında Nümayəndəliyinin rəhbəri Fuad İsgəndərova atası

**ELDAR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5083
Sifariş 139
Qiyməti 40 qəpik